Hacıxanım AİDA

OTUZ ŞEİR,
OTUZ FİKİR

(Zaur Ustac və şeirləri haqqında)

Bakı – 2018

Redaktor və rəssam: Şəhin Senayi Fərd.

رئداکتـــور و رســـام : شهین ثنایی فرد

Hacıxanım AİDA

“OTUZ ŞEİR, OTUZ FİKİR” *(Zaur Ustac və şeirləri haqqında)EK*

Bakı, “USTAC.AZ” nəşrləri, 2018, 106 səh.

Kod: EK-004-04- MZM-14 -20-18

Elektron Kitab Zaur Ustac yaradıcılığının 30 illik yubiley tədbirləri çərçivəsində nəşr olunur. Bu kitabda - (Y-30-EK-04-ZU) – Şairin tərtibçilər tərəfindən əsasən “OTUZ İLDİR, ƏLDƏ QƏLƏM” adlı kitabından təsadüfi qaydada simvolik olaraq seçilmiş otuz şeiri və tanınmış ziyalılarımızın; şairlərin, yazıçıların, müəllimlərin, filoloqların, psixoloqların, həkimlərin, daimi oxucuların fikirləri yer almışdır.

İSBN: 978-9952-8298-9-1ç

© Zaur USTAC, 2018.

ÖN SÖZ

Çox düşünüb-daşındıqdan sonra belə qərara gəldik ki, bu qəbildən olan bir kitab üçün ən münasib ön söz Zaur Ustacın öz qələmindən çıxmış hesabat xarakterli, "QƏLƏM HAQQI VƏ YA MÜRƏKKƏB PULU" adlı on dördüncü yazısı ola bilər... Və bir də, onu nəzərinizə çatdırmaq istəyirəm ki, şeirlərlə tanış olmağa başladıqda ilk şeirdən sonuncuya qədər şair oxucusu ilə olan öz söhbətinə şeiri ilə giriş verir, ardıcıl gələn olduqca səmimi şeirlərlə demək istədiyini həmsöhbətinə çatdırır və sonda yekunlaşdırır. Bütün bunlara baxmayaraq, oxucular bu kitabda ön sözdə yuxarıda adı çəkilən məqalədən məlumat məqsədi ilə bəhrələnəcək, sonra şairin otuz seçilmiş seiri ilə, daha sonra bu şeirlər, ümumiyyətlə Zaur Ustac, onun yaradıcılığı haqqında tanınmış şəxslərin, ziyalılarımızın; şairlərin, yazıçıların, filoloqların, psixoloqların, həkimlərin, müəllimlərin, incəsənət xadimlərinin, daimi oxucuların fikirləri ilə və sonda yazarın qələmindən çıxmış, bir neçə kəlmə bölməsində maraqlı fikirlərlə tanış olacaqlar. Əlavələr(sənədlər) fəslində arxiv sənədləri yer alıb. Sizi Zaur Ustacın söz dünyası ilə baş-başa buraxır, mənalı və xoş istirahətlər arzu edirik.

ON DÖRDÜNCÜ YAZI

QƏLƏM HAQQI VƏ YA MÜRƏKKƏB PULU

(HESABAT)

Salam, dəyərli oxucum... Uca Yaradana şükürlər olsun ki, Bizə qarşı çox səxavətlidir və hər dəfə Sizinlə yeni görüşə gələndə bu şükrü-sənanı qeyd etməyi özümə borc bilirəm. Hər yaşadığımız an üçün şükürlər olsun... Min şükür... Mətləbə keçməzdən əvvəl onu qeyd edim ki, nə qədər çalışsam da yenə yazıma bir sözdən ibarət ad seçə bilmədim... Söz addan düşmüşkən, artıq ad öz-özlüyündə oxucuya söhbətin nədən gedəcəyi barədə ipucu verir. Necə deyərlər əldə qələm 30 – a gəlib çatdıq.

2018 – ci ilin Mayın 24 –də ilk yazımın rəsmi şəkildə mətbu orqanda işıq üzü görməsinin 30 ili tamam olur. 24 May 1988 – ci il "Əməyə məhəbbət" adlı məqaləm, Ağdamda nəşr olunan "Lenin yolu" (sonralar "Ağdam") qəzetinin 62-ci (7194) sayında, 4-cü səhifəsində dərc edilib. ("OTUZ İLDİR ƏLDƏ QƏLƏM" adlı kitabın üz qabığına çıxarılmış foto - cild "Ağdam" qəzetinin Zaur Ustacın şəxsi arxivində saxlanılan həmin bu nömrəsindən istifadə olunaraq hazırlanmışdır.) Və ilk qələm haqqımı deyim, mürəkkəb pulumu deyim - qonorar - aldığım vaxtdan 30 il keçir... Təfsilata keçmədən sadəcə onu qeyd etməyi özümə borc bilirəm ki, həqiqətən də çox keşməkeşli bir həyat yaşamaq qismət oldu Bizlərə...

Sözüsüzki, yaradıcılığımız həyatımızın inkası olduğundan – "qabda nə var çıxar üzə" (Z.U)- bu anlamda mən nəzmi deyil, məhz nəsri nəzərdə tuturam ... Yaşadıqlarımız yazdıqlarımıza çox təsir edir. Hətta, yəqin ki, yaşadıqlarımız yazdıqlarımızı yaradır... Yəni, belə uzun və keşməkeşli bir zamanın müqabilində Biz heç nə yazmamışıq... Adları qoyulmuş, içəriyi də məlum sayı 10 –dan artıq kitab – roman, povest və hekayələr – yazılacağı günü gözləyir... Və gözləyə-gözləyə zənginləşir, dərinləşir, vacibləşir... Yəqin elə buna görədir ki, kəlmələr kağız üzərinə köçməyə tələsmir, hələ bir az da qələmə naz edirlər... Nəsə, yazılmamışları qoyaq bir kənara, keçək yazılmışlara... 30 il əvvəl bir məktəbli məqaləsi ilə başlayan sərgüzəştlərim Uca Yaradanın izni ilə davam etməkdədir və inanıram ki, istədiklərimin hamısını yazıb Sizlərin ixtiyarına verməyə vaxtım olacaq. Bu günə qədər yazdıqlarımdan işıq üzü görən kitablarım aşağıdakılardır:

"GÜNAYDIN" ("AĞÇİÇƏYİM") Bakı - 2010. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR.: ZU — GAC

"İSTƏMƏZDİM ŞAİR OLUM HƏLƏ MƏN" Bakı - 2010. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR: ZU — İSOHM

"GÜLZAR" Bakı - 2011. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR: ZU — G

"MUM KİMİ YUMŞALANDA" Bakı - 2011. (Bu günə qədər iki dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR: .ZU — MKY

"MƏHDUD HƏYATIN MƏCHUL DÜŞÜNCƏLƏRİ" Bakı - 2011. (Bu günə qədər iki dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR:ZU — MHMD

"ŞEHÇİÇƏYİM" Bakı -2011. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR: – ZU — SC

"BALÇİÇƏYİM" Bakı - 2012. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR: ZU — BC

"BƏRZƏXDƏ" Bakı - 2014. (Bu günə qədər bir dəfə nəşr olunub) PDF: – ELEKTRON NƏŞR: ZU — B

"NİŞANGAH" Bakı - 2016. (Bu günə qədər iki dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR: ZU — N

"ORİYENTİR ULDUZU" Bkı -2011. (Bu günə qədər beş dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR: ZU — OU

"GÜLÜNÜN ŞEİRLƏRİ" Bakı - 2011. (Bu günə qədər üç dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR: ZU — GS

"SEVİN Kİ, SEVİLƏSİZ" Bakı - 2014. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR: ZU — SKS

"BAYATILAR" - زائــور اوستاج " بایاتیلار" - Bakı -2014. (Bu günə qədər iki əlifba ilə üç dəfə nəşr olunub və elektron variantı var. Təbrizdə yayımlanıb.) PDF: – ELEKTRON NƏŞR: ZU — BAY

"QƏLBİMİN AÇIQCASI" Bakı - 2016. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR:ZU — QA

"USTADNAMƏ" Bakı - 2016. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ELEKTRON NƏŞR: ZU — U(KHK)

"USUBCAN ƏFSANƏSİ" (MƏQALƏLƏR) Bakı - 2017. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ƏNƏNƏVİ NƏŞR: ZU — USUB

"ÇƏHRAYI KİTAB" Bakı – 2017. (Bu günə qədər iki dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ƏNƏNƏVİ NƏŞR: ZU — CK

"OTUZ İLDİR ƏLDƏ QƏLƏM" Bakı – 2018.(Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.) PDF: – ƏNƏNƏVİ NƏŞR: ZU — OƏQ

YANDIRILMIŞ (LƏĞV OLUNMUŞ) KİTABLAR:

"93 – ün yayı və ya bir qaşıq qatıq", Roman, Bakı – 2011. (Bərpa olunacaq.)

"2016", Povest, Bakı – 2011. (Bərpa olunacaq.)

Yuxarıda sadalanan müəllifi olduğum kitablardan əlavə, dostların məsləhət bilib daxil etdikləri bir-neçə antologiya, toplularda da yer almışam ki, onlardan Mənə məlum olanları bunlardır:

"ZİRVƏ" antologiyası. Bakı – 2017. (Sona xanıma və Vüsal bəyə təşəkkürlər.)

"RUHUMUZUN TURAN ƏTRİ" "Dədə Qorqud" kitabxanası seriyasından. Bakı – 2017. (Balayar müəllimə, Sabir müəllimə, Mehman müəllimə təşəkkürlər.)

"MƏQAM" Toplu. Bakı – 2017. (Hacıxanım Aidaya təşəkkürlər.) *PDF: – ƏNƏNƏVİ NƏŞR:HXA – M*

ASKEF-in yayımladığı "KARABAĞD'AN, KERKÜK'DEN ÇANAKKALE'YE" (şiir seçkisi) antologiyası. Türkiye– 2017. (Günel xanıma, Sayman Aruz bəyə, Sona xanıma və Savaş Ünal bəyə təşəkkürlər.)

Bu günə qədər ənənəvi qaydada nəşr olunmuş bütün kitablarımın elektron variantları var. Hamı üçün tam pulsuz və təhlükəsiz əlçatanlığı təmin etmək məqsədi ilə yaradıcılığın 30 iliyi yubley tədbirləri çərçivəsində təkrar EK nəsrlər olacaq. Son illər müntəzəm olaraq, http://yazarlar.az/ , http://ustac.az/ , http://zaurustac.tr.gg/ saytlarında, **"EV BAZARI" qəzeti (e-qəzet)** yomoristik e-qəzetdə, "MAKLER-VİP" jurnalı (e-jurnal) satirik e-jurnalda, "MARALLAR" satirik bloqda yazılarımı yayımlayıram. Bunlardan əlavə istər http://www.tezadlar.az/ saytı olsun, istərsə də ənənəvi qaydada "TƏZADLAR" qəzeti Bizim üçün Ağdamın bir parçasıdır, "AĞDAM" qədər doğmadır. Onu qeyd etmək istəyirəm ki, istər ənənəvi qaydada qəzet və jurnallarda, istərsə də elektron variantda bütün təkliflərə isti yanaşıram. Heç bir müraciəti cavabsız qoymuram. Eyni zamanda özüm də vacib bildiyim mövzularda yazılarım olanda və şeirlərimi hər iki qayda ilə mətbu orqanlara göndərirəm və yayımlanıram. Əlbətdə, vacib bildiyim mövzularda.... "YARADANLA BAŞ-BAŞA" kitabına daxil olan "QƏLƏM HAQQI VƏ YA MÜRƏKKƏB PULU" (on dördüncü yazı) adlı, hesabat xarakterli bu məqalə "OTUZ İLDİR ƏLDƏ QƏLƏM" kitabında və yubley tədbirləri çərçivəsində Elektron Kitab formatında nəşr olunacaq bütün kitablarda yer alacaq. Ona görə məhz bu yazıda bir məlumatı da açıqlamaq istəyirəm.

Çox düşündüm ki, bu yazılardan, kitablardan başqa nə edə bilərəm... Bilirsiz ki, 2007 – ci ildən fəaliyyət göstərən **YAZARLAR.AZ** - Yazarlar jurnalının yaranma səbəbi, məqsədi, uşaq və gənclərə dəstək olmaq, ümumiyyətlə yaşından asılı olmayaraq yayımlanmaq problemi olan hər kəsə yardım etmək olub. Odur ki, yenə həmin ampuladan çıxış edərək, yaradıcılığın 30 illik yubleyi münasibəti ilə "USTAC" Milli Mükafatını təsis etdim. Mükafat diplomdan, nağd puldan və laureatın **YAZARLAR.AZ**–da yayımlanmış yazılarından ibarət, "Yazarlar" jurnalının xüsusi buraxılışı şəklində, 100 ədəd tirajla – pulsuz, kitabının nəşr olunmasından ibarətdir. Pul mükafatının məbləği bütün dövrlərdə stabil və inflyasiyaya davamlı olması üçün təqdim olunacağı ildə qüvvədə olan Azərbaycan Respublikası Müharibə Veteranın bir aylıq tam müavinəti həcmində nəzərdə tutulur. Pul mükafatı bir dəfə, tam həcimdə ödənilir və qanunamüvafiq olaraq

bəxşiş - bağışlama, hədiyyə etmə əsasında olduğuna görə vergidən azaddır.

Mükafat ildə bir dəfə, yalnız bir nəfərə 28 May Respublika Günü ərəfəsində - əvvəl, sonuncu Bazar günü – 2019 – cu ildən başlayaraq təqdim olunacaq. Kitab isə növbəti ilin təltifinə qdər çap olunub, laureata təhvil veriləcək. Mükafat barədə ətraflı məlumat **YAZARLAR.AZ** da elan olunacaq.

Bu arada "AZAD QƏLƏM", "HAQQIN SƏDASI", "ƏDƏBİYYAT" , "TƏZADLAR" qəzetlərinin, "YURD", "ULDUZ", "AZƏRBAYCAN", "KİRPİ", "MOLLA NƏSRƏDDİN XXI ƏSRDƏ", jurnallarının, eləcə də

http://azpress.az/ , http://senet.az/ , http://zaman24.net/

http://www.yazar.in/ , http://take.az/ , http://siirvideo.com/
https://10yazar.wordpress.com/ , https://yazyarat.com/ ,

http://www.tehsilproblemleri.com/, http://ayb.az/

http://azeri.press/ , http://www.tezadlar.az/ ,

saytlarının bütün işçi heyyətlərinə və rəhbərbərlərinə, ölkəmizdə elektron kitabçılığın və kitabxanaçılığın əsasını qoymuş, günümüzdə olduqca zəngin, böyük həcmli e-kitab bazasına malik http://www.kitabxana.net/ saytının qurucusu, bir çox vacib ictimai işlərdə daim öndə fəallığı ilə seçilən, gənclərə həmişə dəstək olan Aydın Xan müəllimə xüsusi təşəkkürlər... Var olasız, Dostlar və əlbətdə, Bizim tanımadığımız digər Qəhrəmanlar ... Kim cəhaləti ortadan qaldırmaq üçün bir kəlmə deyirsə, yazırsa çox xoşbəxt adamdır... Bu əməlin qəlbə verdiyi fərahlıq hissini ikinci bir iş bəxş edə bilməz.... Uğurlarımız bol olsun... Amin... (Amen...)

Düzü, bilmirəm nəsə unutdum ya yox... Ancaq, yazımı yekunlaşdırmaq istəyirəm.

Sağ olun! Var olun! Hamınıza xoş və əyləncəli günlər arzu edirəm! Arada kitab oxumağı da unutmayın!!!! “***Mütailə*** orqanizmin kompleks müalicəsi, sağlam həyat deməkdir....” (Z.U)

Qeyd:

“Mütailə” edərkən mütalibinizi düzgün seçin… Hörmətlə: Zaur Ustac

02.04.2018. Bakı.

Müəllif: Zaur Ustac ,
© Zaur USTAC,2018. Bakı.

BİRİNCİ HİSSƏ

(OTUZ ŞEİR)

= 1 =

SÖZ MÜQƏDDƏSDİR

Dostum, kəmənd ilə tutmazlar sözü,
Cələ qur, dilinə qoy özü düşsün...
Oynama, qələmlə huydurma – ağac,
Elə tut, əlinə qoy izi düşsün...

* * *

Qələm müqəddəsdir, müqəddəsdi söz,
Onların nazın çək, möhnətlərə döz,
Gör, sənin ağzına baxır neçə göz,
Qələmlə uslu ol, qoy üzə düşsün...

* * *

Gəldin bu aləmə, ərkanı gözlə,
Yaxşı bax ətrafa, dövranı izlə,
Ustac əmanəti, aram ol sözlə,
Qələmlə elə yaz, qoy izi düşsün...

01.05.2017. Şamaxı.

GƏZDİM

Gəzdim, qarış-qarış Vətən torpağın,
Hər dağda, dərədə izim var mənim!
Hələ keçilməmiş, uca dağların,
Uca zirvəsində gözüm var mənim!
* * *
Gəzdim, yorulmadan aranı, dağı,
Seyr etdim, ən ucqar çəməni, bağı,
Heç vaxt qınamadım zamanı, çağı,
Çox bulaq başında üzüm var mənim!
* * *
Gəzdim, bu torpağı, mən oymaq-oymaq,
Ən adi daşa da olmuşam qonaq,
Hər otun, çiçəyin halın soraraq,
Sinəmə yığdığım, sözüm var mənim!!!

01.12.2000. Batabat.

= 3 =

DAĞLAR

(Ruhuna min rəhmət dədə Ələsgər...)

Nədəndi, ürəyim çırpınır yenə,
Gördükcə hüsnündə məlalı, dağlar?!
Yağı cövlan edir, dağıdır yenə,
Qoynunda büsatı, cəlalı, dağlar!
* * *
De, çoxmu çəkərik zülüm-zilləti????
Mövcud hal -vəziyyət üzür milləti,
Onsuz da düşmənin puçdu niyyəti,
Ordumun beşiyi, vüsalı, dağlar!
* * *
Dünya belə qalmaz, dəyişər zaman,
Yenə dövran olar, həmənki dövran,
Bulaqlar başında məclislər quran,
Oğullar ərsəyə gələli, dağlar!
* * *
Ustac bulud kimi dolub, ağlamır,
Köksünün yarası qaysaq bağlamır,
Bir bilsən, ruhumu nələr çuğlamır,
Doğacaq nə zaman Hilalın, dağlar?!

07.05.1995. Marağa.

= 4 =

BU BELƏDİR...

(Əsgər haqqında ballada...)

Nədir yenə, ümman kimi,
çalxalanıb, coşdun, ürək?
İçindəki bu təlatüm,
bu oyanış de nə demək?
Həsrətdənmi, nisgildənmi,
Ürək, yenə çağlayırsan?
Anasına həsrət qalmış,
Körpə kimi, ağlayırsan…
İçindədir; ümid adlı,
qığılcımın od-alvu,
tərslik etmə, dəli könül,
intizara alış, yovu!!!
Həqiqətlər qarşısında,
Biz gücsüzük, biz heç nəyik,
Dinlə məni deyim, ürək,
Biz nəçiyik; şan-şöhrətli,
– “hüququndan keçmiş əsgər”,
həmdəminə həsrət canıq,

bəzən canlı, bəzən cansız,

biz “robotuq”, biz “əşyayıq”…

Bu torpaqdan yoğrulmuşuq,

Bu torpaqdan doğulmuşuq,

Yardan əfsəl, anamızın

Qulluğuna buyrulmuşuq!!!

15.04.1995. Marağa.

= 5 =

DOSTUM

Dostum, haqq yoluna qayıt indidən,
Sonra əməlindən olma peşiman.
Gördüyün işlərə, dediyin sözə
Bir gün, sorğu-sual olacaq inan!
* * *
Yaşama, dünyanı hədər yerə, sən!
Sabahkı gün üçün yaşa bu gündən,
Nəfsin güdazına vermə ömrünü,
Sabahkı yaşayış doğur bu gündən!
* * *
Xülyalar yolunda olma canfəşan,
Arzu, istəyini inam üstə qur!
Bu gün elə yaşa, elə iş gör ki,
Peşiman olma, çalınanda “sur”!

06.10.1996. Bakı.

= 6 =

HƏQİQƏT

Nə qədər Günəş var, yaşayar insan,
İnsan öz ömrünü son edə bilməz.
Dünyasın dəyişər, nizamı ilə,
O, bir varlıq kimi yox ola bilməz!
* * *
Heçdən heç yaranmır, hrç nə heç olmur,
Bulud göydə dolur, yerdə su olur,
Sular buxar olub, göylərə uçur,
Bu, “dünya” nizamsız qurula biməz!
* * *
Gecələr, gündüzlər, Ay və ulduzlar,
Səhradakı qumlar, dəryada buzlar,
Acılı, şirinli, rəngli dənizlər,
Bir təsadüfdürmü? – bu ola bilməz!
* * *
Bütün yaranmışın öz nizamı var,
Canlılar, cansızlar, dərələr, dağlar,
Bütün xəstəliklər, bütün bəlalar,
Heçdən mövcud deyil, heç ola bilməz!

* * *
Dünyamız qurulmuş, bir nizam üstə,
Daşları daş üstə, otu ot üstə,
İnan ki, göz tökən acı tüstü də,
Heçdən yaranmayıb, heç ola bilməz!

* * *

Dostum, yaxşı düşün, düşün bir az da,
İnsan bu, mətləbi duymaya bilməz!!!

18.10.1996. Bakı.

= 7 =

YOL GÖSTƏR

Əcəb xalın var imiş, tər sinədə
Gözəlliklər tək-tək çıxır aşkara.
Xoş vaxtına düşüb, qələm çəkəndə
Heç nə əskiltməyib, şükür Muxtara...
* * *
Mələklər darayıb qara tellərin,
Nabatdan yonulub şümşad əllərin,
Sənintək gülərüz, gözəl dilbərin,
Hüsnündə eyib yox, adam axtara.
* * *
Deyirlər xalların olur xatası,
Sirlidir Zaurun yeni butası,
Bir dəryasan, naməlum çox adası,
Səyyah naşı, çətin tapıb qurtara...

24.11.2009. Bakı.

= 8 =

NƏDƏNDİ

Yanağına qəmzə atan gülüşün,
Ürəyimə nizə atır nədəndi?!
Ədasıyla meh gətirən yerişin,
Ürəyimi közə atır nədəndi?!
* * *
Sən gələndə yoxa çıxır dərd, ələm
Cismim dəftər olur, ruhumsa qələm,
Bir baxış atəşli gözümə məlhəm,
İynə tək dizimə batır nədəndi?!
* * *
İstədim deyəm ki, olasan agah,
Mat qaldım, bu işə özüm də Billah,
Ustacın işləri Vallahi dəsgah,
Qan-tər içrə buza batır nədəndi?!

07.06.2011. Bakı.

= 9 =

GƏL ÖYRƏT MƏNİ

Düşmüşəm hüsnünün sehrinə inan,
Çox azdır bu incə mətləbi qanan,
De görüm qövr edib, alışıb yanan
Odlu bir yaraya su səpərsənmi?
* * *
İncə bir təbəssüm aparır məni,
Qovursan dünyamdan dumanı, çəni
Allahım bir mələk göndərib səni
Şəfalıq bir kəlmə söz deyərsənmi?
* * *
Xəstənin dərdinə dərman təbibim,
Ağzında dili bal, şəkər həbibim,
Səndən nə gizlədim, var bir eyibim,
Bisavad Zaura dərs verərsənmi?

06.11. 2009. Bakı.

= 10 =

TUR ALACAM

(*Şəhidimiz Tural Əhmədovun oğlu Turalın dilindən***)**

Dədəm Qorqud səhv ad verməz,
Doğulmuşuq tur almağa!!!!
Od ərənlər öc saxlamaz,
Doğulmuşuq öc almağa!!!!
* * *
Gözlərimin içinə bax,
Gözünüzü oyacağam!!!!
Hünərin var, tur düzənlə,
Tüm turları alacağam!!!!
* * *
Sanma, qanı qalar yerdə,
Törəmizdir, alacağam!!!!
Tək atamın qanın deyil,
Haqqımızı alacağam!!!!
* * *
Yağmurlu günü sal yada,
Yenə taxtu-tac alacam!!!!
Tarixdə yüz il, bir gündü,
Geci- tezi bac alacam!!!!

28.04.2016 Bakı.

= 11 =

DÜNYA

Ey dünyaya yaman dünya deyənlər,

Halva deyib, ağız şirin edənlər,

Ayaq üstə min yuxuya gedənlər,

Dünya həmən, həm də gözəl dünyadı….

* * *

O, bizik ki, dondan-dona düşərik,

Motal kimi şorlu-şorsuz şişərik,

Ocağımız köz tutmamış bişərik,

Dünya həmən, həm də gözəl dünyadı….

* * *

Ustac deyər, us ilk gündən qayıbdı,

İnsan oğlu, insanlığa ayıbdı,

“O” neynəsin, kim yolundan cayıbdı????

Dünya həmən, həm də gözəl dünyadı…….

14.08.2016. 09:44 (14’). Bakı.

= 12 =

OLUB

Qurbani babamdı, Ələsgər dədəm!
Söz bizə müştaqdı, biz sözə müdəm!
Naşılıq sözündən məlumdur, didəm!
Qanmazın pendiri təkədən olub!!!!
* * *
Çox bəşər görmüşəm, şəsti yerində,
Baxırsan insandı, büstü yerində,
Vidi var, forsu var, postu yerində,
Qabının qapağı ləçəkdən olub....
* * *
Ustac, min hikmət var, bir damla suda,
Bütün arzulara yetdin, nəmxuda,
Nöqsandı dünyaya, qəbul et, bu da
Çoxunun mayası lüləkdən olub....

17.05.2016. Bakı.

= 13 =

MİN ŞÜKÜR

Bir yaqut gizlidi sədəf dalında,

Misli yox ölçülə sərraf dalında,

Min kəlmə şəlləyib əlif dalında,

Dildən dilə süzdürənə min şükür...

* * *

Dədəm, babam nəğmə deyib, söz qoşub,

Kəsə gedib, doğru deyib, düz qoşub,

Məclis qurub, min oxuyb, yüz qoşub,

Teldən telə gəzdirənə min şükür...

* * *

Ustac deyər, hardan gələr bilinməz,

Ha deyilə, yeri dolar bilinməz,

Gülər gözdən qəm süzülər bilinməz,

Eldən elə gəzdirənə min şükür.....

20.10.2016. 12:57 (16') Bakı.

= 14 =

GÖZÜN GÖZÜ

Gülən gözün gözəlliyi gözəldir,
Gülən gözü görünməyən göz görər….
Gözün gülür, gözün gözü gülməyir,
Gözdə gözü görünməyən göz görər….

* * *

Gözü gözdən gözün gözü gizlədir,
Gözdə gözü gözün gözü gizlədir,
Gözün gözü gözümüzdə gizlidir,
Gizli gözü görünməyən göz görər….

* * *

Göygöz giryan, gözü gülməz, gülümsər,
Gülən gözün gözü gözdən gülümsər,
Gülməyən göz, gözə gözdən gülümsər,
Giryan gözü görünməyən göz görər……

21.09.2015. Bakı

*** QEYD:** *"Göygöz" dedikdə Zaur USTAC nəzərdə tutulur.*

SEV

Sən sev, səni sevəni, seçibdi sevgi səni,
Sevməyəni sevənlər sevgisində suçludur….
Sevdiyini söyləyən seçibdi sevgisini,
Sevgisin sezdirməyən sevgisində suçludur….

* * *

Sevgi, sevib-sevilmək, sevənin sevincidir,
Sevgi, sonsuz səxavət, sevdanın sonucudur,
Sevgi, sona sərmayə, sabahın sulqucudur,
Sevgisin sevdirməyən sevgisində suçludur….

* * *

Sevdalının sevgisi, sirli, sonsuz, sınırsız,
Sevib, sezdirməməyi sultanlıqmı sanırsız????
Sevməyəni sevməyi sədaqətmi sayırsız????
Sevdiyini, sevdirən sevgisində suçludur….

23.09.2015. Bakı.

*** QEYD:**

"Sevdalı" dedikdə Zaur USTAC nəzərdə tutulur.

= 16 =

ŞEHÇİÇƏYİM

Tacısan dünyamda tüm çiçəklərin,
Köksündən bal süzən, tər Şehçiçəyim...
Sehrinə düşmüşəm, nur ləçəklərin,
Əqli başdan alan, zər Şehçiçəyim...
* * *
Cəzbində qalmışam, tamam çar-naçar,
Sağımda, solumda çox çiçək açar,
Pərvanəyə dönüb, dövrəmdə uçar,
Sərrafam, seçmişəm, dürr Şehçiçəyim...
* * *
Bir kərə, bir anlıq olsa da, vüsal
Ruhuma rahatlıq verməyir xəyal,
Sonu ölümsə də, gəl qoynuna al,
Həsrətdə yaşamaq, zor Şehçiçəyim...

03.06.2010. Bakı.

= 17 =

GÜLÜZƏ

Yaradan göndərib, səni bir mələk,

Deyib, bu gül gərək, ancaq, gül üzə...

Ata sözü haqdı, bunu haqq bilək,

Ata nəsihəti, çalış, gül üzə...

***

Kaş dilin, dodağın daim bal süzə,

Abırın, ismətin üzə al düzə,

Min budaq, çox yaşa, ilmə sal yüzə,

Yolunda üzünə hər vaxt gül üzə...

***

Sözün şirin olsun, söhbətin məzə,

Qoyma, yanağından əksilə qəmzə,

Bu gözəl dünyanı bir az da bəzə,

Ustac əmanətin qoru, Gülüzə...

12.12.2016. Şamaxı.

= 18 =

TUNCAYA

Tanrı tutub, ağ torpaqdan mayanı,
Gündoğandan Günbatana sənindi!
Nişan verib, yeddi günlük Ayını
Əksi düşən tüm torpaqlar sənindi
* * *
Xəzəri ortaya düz qoyub nişan,
Boynuna dolanan Hilal sənindi!
Ən uca zirvələr, ən dərin göllər
Ormanlar, dəryalar, düzlər sənindi!
* * *
Tanrının payıdı, lütf edib sənə,
Tanrıya sarsılmaz inam sənindi!
Ataya, Anaya, qocaya hörmət
Sirdaşa sədaqət, güvən sənindi!
* * *
Zamanla hökm etdin tüm yer üzünə
Hakimiyyət sənin, höküm sənindi!
Aman istəyəni kəsmədin heç vaxt,
Ən böyük ədalət, güzəşt sənindi!
* * *
Unutma ki, lap binədən belədi,

Mərhəmətli, yuxa ürək sənindi!

Xilas etdi, bağışladı ənamlar,

Yamana yaxşılıq, ancaq sənindi!

* * *

Döyüşdə, düşməni alnından vuran,
Süngüsü əlində ərlər sənindi!
Savaşda, uçağı kəməndlə tutan,
Qüvvəsi qolunda nərlər sənindi!
* * *

Dəli-dolu Türk oğullar cahana
Bəxş etdiyi şərəfli ad sənindi!
Adı gəlsə, yeri-göyü titrədən
Qorxu bilməz, şanlı əsgər sənindi!
* * *

Çöldə simgə etdin Qurdu sancağa,
Kəhər Atın ən yaxşısı sənindi!
Ay-yıldızı nişan tikdin Bayrağa,
Zəkalar, dühalar tümü sənindi!
* * *

Tutduğun yol tək Tanrının yoludu,
Aydın zəka, tər düşüncə sənindi!
Çoxu deyir, tay dünyanın sonudu,
Fəqət bilməz, yeni dünya sənindi!!!

10.10.2011. Bakı.

= 19 =

EY QOCA QURD

Ey Qoca Qurd, çaqqalların ulamağı boşa deyil,

Qızıl qanlı boz pəncəni yalamağa tələsirlər!!!!

Kaftarların umacağı sür-sümükdən artıq deyil,

Üzdə hürüb, sürüsündən ayrı düşcək tir-tir əsər!!!!

* * *

Çaqqalların adı çaqqal, tulaların adı tula….

Səndən olub, atam Qurddu deyənlərə nə deyəsən????

Üzü dönük, səndən olan bizdən deyil onu tulla!!!!

Unut getsin, boz dünyanın boz üzünü çox görmüsən….

* * *

Üzdən sənə oxşasa da, yerişini yerisə də

Hərdən Qurda girişsə də, köpəyə köpək deyərlər!!!!

Lap ağaca dırmansa da, köpək oğlu köpəkdir də

Aqillər də yaxşı deyib: – “itlər hürər, karvan keçər”!!!!

* * *

Ey Qoca Qurd , karvanının yolun üstdə duranların,

Heç biri yox – adı itib, qalmayıbdı izi-tozu….

Keçidlərdə, pusu qurub, tülkü kimi yatanların,

Hiylələri boşa çıxıb, oyulubdu tülkü gözü!!!!

* * *

Ey Qoca Qurd, mənzilini düz seçmisən – duruş gətir….

Gecə sirdaşın Ay, Ulduz, gündüz pənahın Günəşdi….

Nələr gördün bu dünyada, bunlar da sənə vız gəlir….

Ürəyin saf ırmak suyu, ruhun sönməz bir atəşdi!!!!

22.11.2015. Bakı.

= 20 =

QUCAĞINI GENIŞ AÇ…
(*Gizir Pəncəli Teymurova həsr olunur.*)

Qucağını geniş aç, gəlirəm Ana Torpaq,
Çox döymüşdüm qapını, səhər-axşam taq-taraq,
Hər gəlirəm deyəndə, əlimdə vardı bayraq,
O qutsal əmanətin, ünvanına yetibdi…. ….
Sancmışam Sancağımı, rahat gəlirəm indi….

* * *

Səhər-axşam deyərdim, bu canım sənə fəda,
Nə olur mənə olsun, təki sən görmə qada,
"Komandir yaxşı olsa, ordunu verməz bada",
Komutanım öndədir, gül-çiçək düz yoluna….
Sıra ilə gəlirik, yer ver girək qoynuna….

* * *

Çox dilək diləmişdim, Bayraq olsun kəfənim,
Xəyalım gerçək olub, sevinməsin düşmənim,
Dualarım qəbuldu, ağlamasın sevənim,
Ana, sən də gözünün qorasını sıxma ha…
Oğulun adı üstə, qurban gedər torpağa!!!

12.04.2016. Bakı.

= 21 =

QARABAĞ ATI

Anası Günəşdi, atası Aydı,
“Qıratdı”, “Düratdı” Qarabağ Atı!!!!
Tanrı ərmağanı, butadı, paydı,
Baratdı, muraddı, Qarabağ Atı!!!!
* * *

Rəngini veribdi, ana-atası,
Hələ görünməyib, ola xatası,
Telinin əksikdi, şana, fatası,
Namusdu, iffətdi, Qarabağ Atı!!!!
* * *

Cahanı edibdi, özünə heyran,
Utanar baxmağa üzünə ceyran,
Tüm aləm səkməyən gözünə qurban,
Hörmətdi, izzətdi, Qarabağ Atı!!!!
* * *

Qumralı, səkili, məxsus qaşqası,
Bu dərdi anlamaz, əfsus başqası,
Gəzir oylağında donuz çoşqası,
Küskündü, incikdi, Qarabağ Atı!!!!
* * *

Bir dünya incisi çəkir əziyyət,
Əriyir, yox olur, itir məziyyət,
Ustaca tanışdır təbir, vəziyyət,
Köçkündü, qəribdi Qarabağ Atı!!!!

21.07.2016. 23:45(15′) . Bakı.

= 22 =

YARADAN

Kimi yerdə gəzir, kimisi göydə,

Qüdrət nə yaşılda, nə də ki, göydə,

Yer də ona möhtac, asılı göy də,

Zərrədə var olan gücdü Yaradan....

* * *

Biz bilən ölçülər büsbütün yaddır,

Çoxunun bildiyi quruca addır,

Sərhədsiz, hüdudsuz qurucu zatdır,

Bir “ol” – da var olan gücdü Yaradan....

* * *

Ruhuna min rəhmət, ya Seyyid Əli!

Yol açdın Ustaca olmadı dəli,

Dedin ki, hər insan özünə vəli,

Feli bizdən alan gücdü Yaradan....

11.11.2016 (11:11) Bakı.

QƏHƏTDİ

(Zahir qardaşa.)

Zahir qardaş deyir, dünya yamandı;
“Çobanın əlindən çomaq alandı”,
Bütün bunlar, bəhanədi, yalandı,
Çomağı bərk tutan, bilək qəhətdi....

* * *

Vaz keçməyə bir bəhanə gəzərik,
Zəif varsa, orda Ağa – Nəzərik,
Qüvvətlini tərifləyik, bəzərik,
Qaməti şax tutan, ürək qəhətdi....

* * *

Ustacam, keçmişəm kip tərəcədən,
Söz gərək çıxmasın heç dərəcədən,
Çoban ibrət alsın, qoy Qaracadan,
Gözləri tox tutan, dilək qəhətdi....

13.03.2017. Bakı. (13.00. 13’)

= 24 =

VƏTƏN OĞLU

(*Aprel Şəhidlərinin ili günü Bakıda bərk yağış yağdı...*)

Göylər də hönkürüb, ağladı bu gün,

Buludlar göz yaşın saxlaya bilmir....

Damından göz yaşı axıdan koma,

Kövrəlmiş ananı ovuda bilmir....

* * *

Hardasa, bir bala ata gözləyir,

Əlində bir Bayraq gələydi bu gün....

Müəllim istəyib stol üstünə,

Anası alaram, söyləyir hər gün....

* * *

Bir Ata istəyir oğlu bu gün də,

Həyətə tələsik girsin nə olar....

Arxaya baxmadan sürüb maşını,

Bütün gül-çiçəyi əzsin nə olar....

* * *

Elə bilirsən ki, bitər siyahı

Dolabda islanıb bir cib dəsmalı....

Asılqan saxlamır çim su mundiri,

Havadan asılıb bir ər sığalı....

* * *

Bir otaq küncündə bacı naləsi,

Birində qardaşın hıçqırtısı var...

Məhəllə uşağı, qrup yoldaşı,

Bu gün qəmgin durub meyvə satanlar....

* * *

Adi çörəkçi də xiffət eyləyir,

Çəkməçi çəkməsin görüb ağlayır....

Alışqan verdiyi bardakı qızın,

Bu yağış qəlbində tonqal qalayır....

* * *

Körpə uşaqlar da haçandır qəmgin,

Boylanır həyətə, ancaq görməyir....

Ana paltar ipin kəsibdi çoxdan,

Fəxrlə sərdiyin, daha sərməyir....

* * *

Göylər yas saxlayır, Yer qəribsəyib,

Təşnədir mərdlərin yeni nəşinə....

Torpaq əkənindir, əkən də bizik,

Göylərdə gəzənin Yer nə işinə....

* * *

Göylər bizə qahmar, Yer bizə mənzil,

Qəlbin dolanmasın, ey Vətən oğlu....

Nəsimi, Bəhmənyar gör nə vaxt olub???

Vətən də unutmur haqq tapan oğlu....

02.04.2017. Bakı. (14. 30. 1 0’)

= 25 =

MATAH ÇİÇƏK

Hər günaydın, bir pərvəriş,

Buruşmuşdu tağ, çiçəyim...

Ruhum düşdü xoş növrağa,

Günüm oldu ağ, çiçəyim,

Ay mənim matah çiçəyim,

Ay mənim matah çiçəyim...

* * *

Verdin bir parç abi-gövsər,

Dünyamdan qalmadı əsər,

Talesiz bəxtindən küsər,

Qismətə bax, Ağçiçəyim,

Ay mənim matah çiçəyim,

Ay mənim matah çiçəyim...

* * *

Dedim, bu göz çoxdan müstər,

Aç sinənin barın göstər,

Zənbur qonar, balın istər,

Qondu gördü, Şehçiçəyim,

Ay mənim matah çiçəyim,

Ay mənim matah çiçəyim...

* * *

Əzəldən Ağçiçək dedim,

Cəzbində Şehçiçək dedim,

Gözlədim, Balçiçək dedim,

Bərzəx ruha dağ, çiçəyim,

Ay mənim matah çiçəyim,

Ay mənim matah çiçəyim...

* * *

Yaralı bir qəlbdə bitdin,

Hardan gəldin, hara getdin...

Ustacı sərfnəzər etdin,

Cücərtmişəm ah, çiçəyim,

Ay mənim matah çiçəyim,

Ay mənim matah çiçəyim...

14.05.2017. Şamaxı.

= 26 =

ƏLDƏ ÇIRAQ GƏZƏCƏKSƏN...

Əldə çıraq gəzəcəksən,
Ruhun haçan gəzsə məni...
Qəm gölündə üzəcəksən,
Bir gün qəhər üzsə məni...
* * *
Sapı, ipdən ayrı tutan,
Qəmi dosta baha satan,
Tüm qəlblərdə gizli yatan,
Bir gün durub çözsə məni...
* * *
Ov bərədə, tacı taxtda,
Nə günah var acı baxtda?
“İldə bir yol atar taxta”,
Atəş yaxmaz görsə məni…
* * *
Əldə çıraq gəzən vaxtı,
Gəl, qınama heç vaxt baxtı,
Yaradan qurubdu taxtı,
Bil, yıxacaq əzsə məni...
* * *
Pirim Nəsimi, Ustacam,
Bəhmənyar elminə acam,
Burdayam, sənə möhtacam,
Mən gedincə gəzmə məni...

03.07.2017 12:45 (19’) Bakı.

= 27 =

İNCİ, QƏRƏNFİL...

Olsan da, bu işdə ən son müqəssir,

Gəl, məndən incimə, inci qərənfil...

Utanc çiçəyisən, utanc çiçəyi,

İstəsən lap məndən inci, qərənfil...

* * *

Ruhum bu halından çox mütəəssir,

Yenə döşənmisən küçəyə, daşa...

Qaxınc çiçəyisən, qaxınc çiçəyi,

Qaxanc örf-adətə, öfkəyə, başa,

* * *

Bu işdə bilmirik, kimdi müqəssir,

Bizim üz qaramız, qırmızımızsan...

Həya örpəyisən, güvənc ləçəyi,

Sən bizim dünyaya qırımımızsan...

* * *

Ustac tək oğullar çox mütəəssir,

Üz-üzdən utanır, dözür ağrına...

Əlacsız-əlacsız ödünc çiçəyi,

Silah əvəzinə sıxır bağrına...

20.01.2018. Bakı. (15:00)

= 28 =

“LAZIM” GƏLSİN...

(*Lazım gəlsə*...)

Ya ağ olub, ya da qara,

İstəyirəm, bozum gəlsin...

Dar quranlar, salıb tora,

İstəyirəm, çözüm gəlsin...

* * *

Cümlə-cahan batıb qara,

Təbiət də çəkib dara,

İnsan oğlu möhtac qora,

İstəyirəm, Yazım gəlsin...

* * *

Bixəbər, nanəcib gəlib,

Soylu gəlib, nəcib gəlib,

Haram gəlib, vacib gəlib,

İstəyirəm, “Lazım” gəlsin...

* * *

Bəşər itirib həvəsi,

Yox hal, tükənib nəfəsi,

Bizi yorub tütək səsi,

İstəyirəm, sazım gəlsin...

* * *

Ustac verər, düzə dəyər,

Haqq bildiyin, üzə deyər,

Sazı öyər, sözü öyər,

İstəyirəm, bizim gəlsin...

16.01.2018. (13:00 – 10’) Bakı.

= 29 =

DÜŞÜNÜRƏM...

Soy, o soydur, kök, o kökdür, qan, o qan...

Lap, bir-iki bicbalanı qat gözə.

Boy, o boydur, qol, o qoldur, can, o can...

Təkəm-seyrək, kəm-kəsiri sat sözə.

Sual doğur, onda nədir çatmayan???

Cavab budur: - “Atillanın öfkəsi”!!!

Bizdə çatmır, dədələrin hikkəsi!!!

* * *

Çay, o çaydır, göl, o göldür, dan, o dan...

Ufaq-təfək olmayanı keç bizə.

Toy, o toydur, çöl o çöldür, xan, o xan...

Biraz böyük, biraz kiçik, keç sözə.

Qürub da o, onda nədir çatmayan???

Cavab sadə: - “Çingiz xanın öfkəsi”!!!

Bizdə çatmır, dədələrin hikkəsi!!!

* * *

Hay, o haydır, rum, o rumdur, biz, o biz...

Tərliyinə yapışanı ver yelə.

Say, o saydır, qom, o qomdur, diz, o diz...

Tutuşanda aşmayanı ver belə.

Bəs beləsə, onda nədir çatmayan???

Cavab təkdir: - “Sultan Fateh öfkəsi”!!!

Bizdə çatmır, dədələrin hikkəsi!!!

* * *

Rey, o Reydir, Şam, o Şamdır, yol, o yol...

İnsan həmin, adamlar o, düş düzə.

Köy, o köydür, kənd, o kənddir, el, o el...

Əsl qədim, tarix zəngin, xoş bizə???

Haqlı sual, onda nədir çatmayan???

Cavab birdir: - “Xətainin öfkəsi”!!!

Bizdə çatmır, dədələrin hikkəsi!!!

* * *

Mey, o meydir, cam, o camdır, din, o din...

Əyri-müyrü düzəlişi yaz düzə.

Pay, o paydır, yem, o yemdir, hin, o hin...

Zaval gəlməz doğru sözə, yaz düzə...

Fəqət sual, onda nədir çatmayan???

Cavab yekdir: - “Şah Qacarın öfkəsi”!!!

Bizdə çatmır, dədələrin hikkəsi!!!

* * *

Ley, o leydir, sar, o sardır, vağ, o vağ...

Yarasanı mixi xətlə yaz mizə.

Huy, o huydur, gül, o güldür, bağ, o bağ...

Dəmi boş ver, onu kəsir yaz bizə.

Sual həmin, onda nədir çatmayan???

Cavab netdir: - “Atatürkün öfkəsi”!!!

Bizdə çatmır, dədələrin hikkəsi!!!

15.03.2018. Bakı. (9:19 – 19’)

= 30 =

OLACAQ

(...sözünüz ağzınızda qalmasın...)

Ağzındakı söz olmasa,

Ürəyində köz olacaq...

Dediyin söz düz olmasa,

Boğazında qoz olacaq...

* * *

Ağız dilə dar olarsa,

Düz əyriyə yar olarsa,

Haqq nahaqdan xar olarsa,

Silinməyən iz olacaq...

* * *

Məncə yox, bundan betəri,

Dəyər, hamıya xətəri,

Heç nəyə baxma ötəri,

Yatağında biz olacaq...

* * *

Dünyanın ən acı dərdi,

Sındırıbdı, neçə mərdi,

Hamı dinmədikcə, mərddi,

“Quş uçurtsa, qaz olacaq...”

* * *

Ağızda söz gəvələmək,

Ən acı dərd, - böylə bilək,

Nəsimidən alaq örnək,

Ustac desə, az olacaq...

05.04.2018. Bakı. (15:49 - 9’)

İKİNCİ HİSSƏ

(OTUZ FİKİR)

= 1 =

MÜSAHİBİMİZ:

AVRASYA SANAT KÜLTÜR EDEBİYAT VE BİLİM FEDERASYONU (ASKEF) GENEL BAŞKANI

Savaş ÜNAL - Türkiyə.

Değerli kardeşim Zaur Ustac'a Sizleri tanıdığım günü hatırlıyorum Azerbaycan'a geldiğimizde Birlikte aynı masada oturmuş sohbet etmiştik. Zaur Ustaç bana göre iyi bir dost,iyi bir şair,iyi bir gazetecidir. Bizlerin Türk dünyasında yaptığı her tedbiri,her güzel çalışmayı hemen haber yapar tüm dünyaya duyurur bu konuda kendisine minnettarız. Şiirlerini okudum duygu ve düşüncelerini oldukça güzel bir anlatma tarzı var. Şiirlerinde sevgi, nasihat ve vatan konularına ağırlık veriyor: Sən sev, səni sevəni, seçibdi sevgi səni,

Sevməyəni sevənlər sevgisində suçludur…

Sevdiyini söyləyən seçibdi sevgisini,

Sevgisin sezdirməyən sevgisində suçludur...

Diyerek sevgiyi anlatmış,

Göylər bizə qahmar, Yer bizə mənzil,

Qəlbin dolanmasın, ey Vətən oğlu...

Nəsimi, Bəhmənyar gör nə vaxt olub???

Vətən də unutmur haqq tapan oğlu....

Diyerek vatanı anlatan örnekler çok güzel olmuş. Değerli kardeşim; kalemin hiç susmasın, içinde ki vatan sevgisi her daim kalsın. Seni tanıdığıma dost olduğuma şad oldum. Dostluğumuzun , kardeşliğimizim daim olması dileğiyle Allah seni ve aileni korusun.

Mənbə: **Savaş Ünal**

MÜSAHİBİMİZ:

AĞDAM RAYON MƏDƏNİYYƏT ŞÖBƏSİNİN MÜDİRİ

Şahin QASIMOV – Ağdam.

İlk öncə Sizi salamlayır və mənim də fikrimi öyrənmək istədiyinizə, bu layihədə yer ayırdığınıza görə öz minnətdarlığımı bildirirəm. Xeyirli, uğurlu olsun. Layihə haqqında onu qeyd etmək istəyirəm ki, olduqca orijinal, zamanla ayaqlaşan, bəlkə də onu qabaqlayan və eyni zamanda vacib, faydalı bir iş tutmusunuz. Zamanın imkanlarından istifadə edərək, müxtəlif regionlardan olan, fərqli sahələrin insanlarını vahid məqsəd üçün bir araya gətirmək, toplamaq çox maraqlı tədbirdir. Mən buna virtual konfrans deyərdim. Olduqca maraqlıdır. Müasir dünyanın imkanlarından istifadə edərək insanlar dəvət alır, toplanır və öz fikirlərini bildirirlər. Bu çox gözəldir. Belə bir tədbiri ancaq alqışlamaq olar. Yəqin ki, bu bir ilkdir. O ki, qaldı Zaurun şeirlərinə məncə onların şərhə ehtiyacı yoxdur. Zaurun istər Sizin burada təqdim etdiyiniz şeirləri, istərsə də burada yer almamış digər çox saylı yazıları – nəsr və ya nəzm fərq etmir – hamısı həyatidir. Məncə onun bütün yazdıqlarının konkret obyektləri, istinad nöqtələri var. Şübhə etmirəm ki, yazılarının böyük əksəriyyəti ünvanlıdır. Şeirlərin hansısa biri haqqında söz söyləyib onları bir –birindən ayırmaq istəmirəm. Hamısı gözəldir, anlamlıdır, həyatidir. Uğurların bol olsun, Zaur. Sağ olun.

Mənbə: **Sahin Qasimov**

MÜSAHİBİMİZ:

ŞAİR – PUBLİSİST

Xaliq RƏHİMLİ – Bakı.

"Çoxu deyər tay dünyanın sonudu

Fəqət bilməz yeni dünya sənindi “

Deyən Zaur Ustacın şeirləri öz nikbinliyi, həyat eşqinin zənginliyi ilə məndə maraq oyatdı. Zaurun şeirlərində şifahi xalq ədəbiyyatının ətri, ustad nəfəsi var. Yaxşı cəhətlərdən biri budur ki, şair min illərin əzəli və əbədi mövzularına özünəməxsus şəkildə yanaşmağı bacarır, həmkarlarından fərqlənməyə çalışır və buna nail olur. Zaur Ustacın şeirlərinə işıq salan eyni zamanda onun səmimiyyətidir, sözə məsuliyyətlə yanaşmasıdır. O kəmiyyətdən çox keyfiyyətə fikir verir və zəhmətsiz, havayı şöhrətdən uzaqdır. Bu da özündən əvvəlki söz ustadlarının ruhuna hörmət əlamətidir. İstedadı verən Allahdır. Bu mənada Zaurun Yaradanın nəzərində olmağına inanıram. Sözündən tanıdığım şair dostuma yeni- yeni uğurlar diləyirəm .

Mənbə: **Xaliq Rehimli**

= 4 =

MÜSAHİBİMİZ:

PSİXOLOQ

Lalə ƏHMƏDOVA – Bakı.

Zaur Ustac ədəbiyyatda öz üslubu ilə seçilən həlim, xalqa yaxın şairlərdən biridir. Daim Vətənpərvərlik mövzusuna toxunan, gözəl qələm sahibi rahat anlaşıqlı, xalqa yaxın, öz səmimi şeirləri ilə həmişə seçilib.

Onun şerlərində Vətənə olan sevgisi, daim Vətən üçün döyünən şair ruhu hiss olunur.
Seirlər tez mənimsənilən yadda qalan, duyğulandıran, düşündürən nə desəz var bu yaradıcılıqda…

Gözel insan, gözel şair Sizə can sağlığı, daha uca zirvələr fəth etmənizi ve daim zirvələrdə olmanızı arzu edirəm, əziz Zaur Ustac. Uğurlarınız bol olsun!!!

Mənbə: **Lale Ahmedova**

= 5 =

MÜSAHİBİMİZ:

ŞAİR-PUBLİSİST, PEDAQOQ.

Dünyamin MƏMMƏDOV – Ağdaş.

Zaur Ustac yaradıcılığını mən həmişə maraqla izləmişəm… Mövzu rəngarəngliyi, səmimi duyğuların ifadə olunması, həyati mövzulara diqqət yetirməsi və s. xüsusiyyətlər əsas məziyyətlər olub, oxucular üçün həmişə oxunaqlı eyləyir… Layihə üçün seçilmiş şeirin hər biri haqqında mən yalnız xoş sözlər deyə bilərəm…Əgər sıra ardıcıllığı ilə desəm,ilk şeir "Söz müqəddəsdir" adlanır…Doğrusu, bu şeirin elə ilk misrası məni tutdu: *"Dostum, kəmənd ilə tutmazlar sözü, Cələ qur, dilinə qoy özü düşsün… "* Söz haqqında poeziyamızın dahilərinin söylədiyi fikirlər arasında, məncə, bu gözəl misraların da özünəməxsus yeri vardır… İkinci şeiri də bütünlüklə bəyənirəm… Burada da ecazkar Vətən torpağının gözəl tərənnümü vardır: *"Gəzdim, qarış-qarış Vətən torpağın, Hər dağda, dərədə izim var mənim!... Hələ keçilməmiş, uca dağların, Uca zirvəsində gözüm var mənim!..."* – "Dağlar" şeirini oxuyanda ustad Ələsgəri necə xatırlamayasan axı?!… Bu gözəl qoşmada təbiətin gözəlliyi ilə yanaşı yurd dərdi, el-obanın mövcud vəziyyəti də reallıqla təsvir olunmuşdur; *"Dünya belə qalmaz, dəyişər zaman, Yenə dövran olar, həmənki dövran, Bulaqlar başında məclislər quran, Oğullar ərsəyə gələli, dağlar!... "* Şairin Vətən haqqında şeirlərinin yaradıcılığında ayrıca bir yeri vardır… Harada yazılmağından asılı olmayararaq, belə əsərlərdə torpaq sevgisi sanki bir qırmızı xətlə keçir… Əsgər balladsı adlandırdırılmış şeirdəki bu bəndi də çox bəyəndim; *"Bu torpaqdan yoğrulmuşuq, Bu torpaqdan doğulmuşuq… Yardan əfsəl, anamızın Qulluğuna buyrulmuşuq!!!* "Vətəni ana adlandırmaq hər bir oğulun borcudur. **Zaur Ustacın npoetik qələmi öz borcunu ləyaqətlə yerinə yetirən bir şair-oğulun qələmidir…** "Dostum" adlı şeirdə insanları doğru yaşamağa çağrış, "Həqiqət" şeirində isə dünyanın, həyatın, yaradılışın fəlsəfi gerçəkliyi öz əksini tapmışdır… Hörmətli Zaur bəy, Sizə gələcəkdə də yaradıcılıq uğurları arzulayır və bir oxucunuz kimi əsrlərinizi oxumaqdan həmişə zövq alacağıma inanıram… Sağ olun, var olun!…

Mənbə: **Dünyamin Memmedov**

MÜSAHİBİMİZ:

Keçmiş SSRİ jurnalistlər ittifaqının və indiki Azərbaycan jurnalistlər birliyinin üzvü, "Qızıl Qələm"-Fəxri Media Mükafatı laureatı, satirik "KİRPİ" jurnalında redaktor, ŞAİR – PUBLİSİST, HƏKİM.

Əjdər ƏLİZADƏ – Ağdam - Bakı.

Zaur Ustac öz dəsti-xəti ilə, şeir yazmaq üslubu ilə, özünəməxsus şairlik istedadı ilə müasir Azərbaycan ədəbiyyatına artıq püxtələşmiş bir şair kimi daxil olacaq şairlərdəndir. Zaur Ustac yaradıcılığı çox maraqlı, çox zəngin və oxucunun ürəyinə yol tapandır. Şairin vətənpərvər, hərbi vətənpərvər və müqəddəs anaları vəsf edən şeirlərini xüsusi qeyd etmək istərdim. Zaur Ustacın bu qəbildən olan dərslik kitablarına daxil edilə biləcək çoxlu sayda əsərləri mövcuddur. Qarabağımız, şəhidlərimiz və şəhid analarına həsr olunmuş şeirləri daha önəmlidir.

Şairin təbiəti vəsf edən şeirlərini oxuduqca insan qeyri-ixtiyari xəyal qanadlarına yüklənərək həmin dağlara, yamaclara, mənzərəli yerlərə səyahət edir.

Şairin sevgi şeirləri də çoxdur. Onun lirik şeirlərini oxuduqda keçmişdə sinədəftər, bədahətən deyişmələr edən şair və aşıqları, hətta Dədə Ələsgəri xatırlamamaq olmur.

Biz də istedadlı şair Zaur Ustaca bu gözəl və nəcib yaradıcılıq yollarında sonsuz nailiyyətlər arzulayırıq.

Mənbə:**Əjdər Əlizadə**

= 7 =

MÜSAHİBİMİZ:

ŞAİR – PUBLİSİST

Bədirə HƏSƏNQIZI – NİFTALİYEVA - Neftçala.

Bu gözəl layihə üçün minnətdrlığımı bildirirəm.
Söz Tanrıdan bir hikmət, insanlığa nəsihətdir. Nəzmə çəkilən söz-ruhun qönçəsidir. Oxunduqca, anlaşıldıqca, xoş niyyət çalarında əmələ köçdükcə, daha da müqəddəsləşir, zərif ətrində min-min ruhu təzələyir, qovuşdurur... Cox sevilən, eyni zamanda seçilən Zaur Ustacın yaradıcılığı – ruhundan qopan, qələmindən süzülən hikmət çeşməsidir desəm, yanılmaram. Əlbəttə, əgər şairin yaradıcılığından "Bilirsinizmi"?-deyə aforizmlər toplamalı olsaydım, gənc nəslin tərbiyəsində önəmli əhəmiyyəti olan gözəl bir vəsait yaratmış olardım... Bu mübaliğəsiz belədir. Zaur Ustacın söz çeşməsi bizi axarında həm keçmişə, həm gələcəyə aparmaqla, bu yollarda ən incə məqamları düşünməyi tövsiyə edir. Mən bu seçimimdən bir neçəsini qeyd etməklə hörmətli şairimizin niyyət gözəlliyini bir daha nəzərə çatdırmaq istərdim. Şairin insanlığa nəsihəti, ruhumuzu dilləndirən, əməldə yaşatmalı olduğumuz düşüncələrindən bir neçə yarpaq:

- "Ey Qoca Qurd, mənzilini düz seçmisən – duruş gətir….",

- "Nəsimidən alaq örnək, Ustac desə, az olacaq...",

- "Soy, o soydur, kök, o kökdür, qan, o qan..."

- "Sual həmin, onda nədir çatmayan???
Cavab netdir: - "Atatürkün öfkəsi !!!"

-"Telinin əksikdi, şana, fatası,
Namusdu, iffətdi, Qarabağ Atı!!!!"

- “Yaralı bir qəlbdə bitdin,
Hardan gəldin, hara getdin...
Ustacı sərfnəzər etdin,
Cücərtmişəm ah, çiçəyim,”

-“Bu işdə bilmirik, kimdi müqəssir,
Bizim üz qaramız, qırmızımızsan...
Həya örpəyisən, güvənc ləçəyi,
Sən bizim dünyaya qırımımızsan...”

-“Nəsimi, Bəhmənyar gör nə vaxt olub???
Vətən də unutmur haqq tapan oğlu....”

-“Əldə çıraq gəzəcəksən,
Ruhun haçan gəzsə məni...”

-“Gör, sənin ağzına baxır neçə göz,...”

-“Ustac bulud kimi dolub, ağlamır,
Köksünün yarası qaysaq bağlamır,...” və s.

Hörmətli şairimiz Zaur Ustaca ruhunun həsrət çiçəyi olan əsir ellərimizə gedən yolda zəfər nəğməsi yazması diləyilə...can sağlığı, yaradıcılıq uğurları, ailəsilə
birlikdə xoş günlər arzu edirəm.
12 Aprel-2018-il.
Bədirə Həsənqızı (Niftaliyeva)

Mənbə: **Bədirə Niftaliyeva**

MÜSAHİBİMİZ:

Pedaqoji Elmlər üzrə Fəlsəfə doktoru, ŞAİR – PUBLİSİST.

Mayıl DOSTU – Sumqayıt.

Müxtəlif mövzulara müraciət etməsi, rəvan poetik dili, lirik təhkiyə ilə şair düşüncəsinin qarşılıqlı əlaqəsi, milli dəyərlərin sevgi ilə qabardılması Zaur Ustac poeziyasının əsas xüsusiyyətləridir. Vətən sevgisi, milli kimliyimiz, vətandaş təəssübkeşliyi və s. kimi məsələlər şairin bir çox şerlərinin əsas qayəsidir, şair Vətənin quru daşını da, gül-çiçəkli çəmənliyi qədər sevir. Təbiət, sevgi-məhəbbət, bəşəri mıvzularda yazdığı şerlərdə şair, oxucunu düşündürməyi, onu ram etməyi bacarır. Şairə yeni yaradıcılıq uğurları arzulayıram!

Hörmətlə: Mayıl Dostu.

Mənbə: **Mayil Dostu**

= 9 =

MÜSAHİBİMİZ:

ŞAİR – PUBLİSİST, PEDAQOQ.

Gülşən MUSTAFA – Bakı.

Məncə bütün yazarlar özlərini yazırlar. Bir mətndə ki, yazarın ruhu, kimliyi duyulmadı o boğazdan yuxarı deyilmiş söz yığınıdır. Zaur Ustac yaradıcılığında da onun öz dünya görüşü, vətən sevgisi, insani dəyərləri, hissləri aydın sezilir. Şairin vətən sevgisi təqdirə layiqdir. Uğurlar arzu edirəm!

Mənbə: **Gülşən Mustafa**

MÜSAHİBİMİZ:

AYB-NİN ÜZVÜ, ŞAİR – PUBLİSİST.

Sevinc ARZULU – Bakı.

Salam.Mənim də fikirlərimi bilmək istədiyinizə görə təşəkkürlər. Şeirləri oxudum. Bəzilərini əvvəl də oxumuşdum. Zaur Ustacla şəxsi tanışlığımız olmasa da sosial şəbəkədə dostuq. Umimi dostlarımızın çoxu şair, yazıçı, incəsənət xadimi və şeriyyəti sevən oxucular dır. Mən Zaur Ustacın şeirlərini maraqla oxuyuram və bəyənirəm. Hərdən də fikrimi bildirirəm. Onun şeirlərində Dədə Ələsgərin ruhu duyulur. İnsani hisslər, duyğular səmimiyyətlə qələmə alınmışdır. Ana Vətənin azadlığı uğrunda qurban gedən şəhidlərimizə yazdığı "Qucağını geniş aç" şerinə duyğulu anların şahidi oluruq. Aprel şəhidlərinin qəhrəmanlığına həsr olunmuş bu misralar bizi də kövrəldir:

"Göylər də hönkürüb ağladı bu gün,

Buludlar göz yaşı saxlaya bilmir.

Damından göz yaşı axıdan koma,

Kövrəlmiş ananı ovuda bilmir. "

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Tanrı bizə tezliklə Qələbə şeri yazmağı nəsib etsin. AMİN. Zaur Ustaca yeni-yeni yaradıcılıq uğurları arzu edirəm.

Hörmətlə:AYB-nin üzvü, şairə Sevinc Arzulu.

Mənbə: **Sevinc Arzulu**

= 11 =

MÜSAHİBİMİZ:

ŞAİR – PUBLİSİST

Nayibə QAFANLI –Bakı.

Zaur Ustac o qədər təbii istedada malik olan şairdi ki, mən onun haqqında söz deməyə acizəm. Zaur qafiyə xatrinə şer yazmır. O, məntiqli, dərinmənalı, düşündürücü, fəlsəfi şerlər müəllifidir. Zaur Ustacın söz xəzinəsi o qədər tükənməzdir ki, uca zirvələrdən təbii bulaq kimi qaynayır, oxuduqca ürəkləri sakitləşdirir. Mən ona zəmanəmizin dahi şairi deyirəm. Ona uğurlar arzulayıram.

Mənbə: **Nayibe Qafanlı**

= 12 =

MÜSAHİBİMİZ:

MÜHASİB, ŞAİR.

Vidadi Məmmədli - Bakı

Sizi salamlayıram! Mənə görə Zaur Ustac sözü, qələmi, Vətəni müqəddəs bilən, zamanı, məkanı, insanları qiymətləndirməyi bacaran söz ustası, gənc nəsil şairlərin önündə gedənlərdəndir. Ona hər zaman beləcə öndə, zirvədə olmaqla yaradıcılıq uğurları arzulayıram!

Mənbə: **Vidadi Məmmədli**

MÜSAHİBİMİZ:

ŞAİR – PUBLİSİST

Həqiqət HƏQİQİ

Həyatın keşməkeşli yollarından keçmış, qələmə sarılan, qəmini, sevincini ağ vərəqlərlə bölüşən Zaur qəlbi kövrək hislərlə cilalanıb. Onun baxışlarında həyat eşqi bəzən közərir, bəzən də çağlayan bulağa bənzəyir. Onun haqqında geniş yazmaq olar. Çünki, bu insanın həyatı bir şeiriyyatdır. Kiçik bir məlumatla boyük bir dağ aşmaq kimi, xırda bir qığılcımdan vulkan püsgürən kimi. Oxuyun bu həyat yaradıcılığın şahidi özünüz olun.

Mənbə: **Həqiqət Həqiqi**

= 14 =

MÜSAHİBİMİZ:

ŞAİRƏ

Xalidə NURAY – Naxçıvan.

Zaur Ustac şerlərinin daimi oxucularından biri kimi deyə bilərəm ki, şair qardaşımız şerlərinin mövzusunu çox ustalıqla seçir. Şerləri vətənpərvər, sevgi, həyatdan götürülmüş, dolğun məzmunlu şerlərdir. Sərbəst, heca vəznində yazılmış şerlərdir. Şerlərdəki poetik sətirlər ustalıqla işlədilməsinə baxmayaraq, qafiyələdə kiçik,s ezilməyən xətalar mövcuddur. Hansı ki, bu kiçik xətalar ən məhşur şairlərin şerlərində də, olur. Əsas şerdə məzmun götürülür, sonra o biri əlamətlər. Sərbəst mövzuda şerləri daha dəqiq qafiyələndirir. Heca vəznində yazılan şerləri də diqqətə layiqdir. Şairə gələcək işlərində uğurlar arzulayıram.

Mənbə: **Xalida Nuray**

= 15 =

MÜSAHİBİMİZ:

ŞAİRƏ

Tahirə İLYASQIZI – Bakı.

Salam. Zaur müəllimin Vətənə aid, əsgərlərmizə aid və. s. ürəyə yatımlı duyğusal şeirlərin çoxdur. Hörmətli Zaur müəllim, Sizə bu poeziya aləmində uğurlar arzu edirəm.Yolunuz həmişə açıq olsun.

Hörmətlə: Tahirə İlyas qızı.

Mənbə: **Tahira İlyas Qızı**

= 16 =

MÜSAHİBİMİZ:

AYB-NİN ÜZVÜ, ŞAİR.

Elnur QƏRARİ

Dünya qloballaşır, bəşər düşüncəsi kosmopolit yön alır, lakin bütün bu sürətli hadisələrin fonunda uzaqdan bir işıq görünür – Vətən.

Torpağa tapınmaq, vətənin qoxusu ilə nəfəs almağın həzzini yaşamaq hər insana nəsib olmur. Bu mübarək hissi yaşamağın özü bir şərəfdir.

Zaur Ustac şeirlərdə vətən torpağının ətrində məst olan bir insan kimi misralarını da vətən rənginə boyayıb.

Nədəndi, ürəyim çırpınır yenə,
Gördükcə hüsnündə məlalı, dağlar?!

–deyir şair və vətən aşiqi olduğunu isbat edir, göstərir ki,vətən həsrəti çəkmək insanlığın bariz göstəricisidir.

Yağı cövlan edir, dağıdır yenə,
Qoynunda büsatı, cəlalı, dağlar!

Bu mirsalarda nəfəsi ilə, misraları ilə düşmənə hayqırır, ona hücum edir. Əslində şair silahı onun çılğın misralarıdır.

Nədir yenə, ümman kimi,
çalxalanıb, coşdun, ürək?
İçindəki bu tələtüm,
bu oyanış de nə demək

Bu sətirləri oxuduqca şairin romantik zənginliyinə enirsən, onun ekzistensial aləmini kəşf edirsən. Ürəyin-qəlbin ahəngini vəsf edir şairimiz.

Biz bilən ölçülər büsbütün yaddır,
Çoxunun bildiyi quruca addır,
Sərhədsiz, hüdudsuz qurucu zatdır,
Bir “ol” – da var olan gücdü Yaradan....

– deyir şair və əslində bununla dərin bir həqiqət aşılayır oxucusuna.

– Tanrı həqiqəti. Ta qədimdən bu günə qədər "Uca Yaradan" ədəbiyyatın ən ehtişamlı mövzularından olub və bəlkə də klassik ədəbiyyatın ən fundamental mövzusu olub. Bizim şair də bu möhtəşəm reallığa biganə qalmayıb və Tanrıdan savayı bütün varlıqların əslində yad olduğunu, təkcə Uca Rəbbimizin bizə doğma olduğunu gözəl ibarələrlə dilə gətirib, təsbit edib.

Ümumiyyətlə Zaur Ustac şeirlərinin milli ruhu güclüdür, səmimidir, aydın və işıqlıdır.

Arzumuz budur ki, şair bu cür vətəncanlı, torpaq ürəkli, insan düşüncəli şeirlərini mütəmadi qələmə alsın. Ümüdvaram ki, tezliklə Zaur Ustac doğulduğu vətən torpağına qayıdacaq, yeni təsüratlarla yeni duyğularla daim yazıb yaradacaq. Bu bizim müqəddəs amalımızdır.

Mənbə: **Elnur Qərari**

= 17 =

MÜSAHİBİMİZ:

AYB-NİN ÜZVÜ, ŞAİRƏ.

Lilpar CƏMŞİDQIZI – Sumqayıt.

Əsrlərdən, qərinələrdən bizə gəlib çatan bu cümlə "İstedad Allah vergisidir" kəlamı həmişə özünü doğruldub. Həqiqətən də yer kürəsində olan insanların məhz hamısı yox, yalnız seçilmişlərində qeyri-adi istedad olur. Yazıçılar, şairlər bu insanların arasında ən seçilmiş bəndələrdir. Zaur Ustac məhz belə insanlardandır. Onun şeirərində Vətən, Torpaq mövzusu əsas şərtlərdən biridir. Şairin yazdığı şeirlər gənclərimizi vətənpərvərliyə ruhlandırır. Zaur Ustac yaradıcılığına nəzər salanda görürük ki, şair hər an özünü cəbhədə əsgərlərimizin yanında hiss edir. Şəhidlərimiz haqqında yazdığı şeirlərində qəhrəman Vətən oğullarının igidliyini tərənnüm eləmişdi. Uzun illər ədəbiyyatla məşgul olsamda, bu vaxta qədər minlərlə şeirlər oxusam da Zaur Ustacın şeirləri özlərinin sadəliyinə, fikir yükünə, obrazlı ifadələrinə, fəlsəfi duyumuna görə çox xoşuma gəldi. Zaur Ustacın yaradıcılığını daima izləyən bir şair həmkarı kimi şairin şeirlərini çox bəyənirəm və bu müqəddəs yolda ona uğurlar arzulayıram.

Hörmətlə: Lilpar Cəmşidqızı.

Mənbə: **Lilpar Cəmşidqızı**

= 18 =

MÜSAHİBİMİZ:

ŞAİR

Togiq QƏBUL – Naxçıvan.

Zaur Ustaclının yaradıcılığını iki ilə yaxındır ki, izləyirəm.Onun şair təxəllüsü nədənsə mənə Cənubi Azərbaycanı xatırladır.Zaur özünəməxsus poetik deyimə malikdir.Şair dövrün ictimai- siyasi hadısələrinə şair intiusiyası ilə yanaşaraq doğru qiymət verməyi bacarır.Onun Aprel döyüşləri ilə bağlı yazdığı "Vətən oğlu" şeiri buna bariz nümunədir.Vətəndaş şair yeri gələndə xalqımızın keçmişinə üz tutur, düşündüklərini oxucu ilə bölüşür."Düşünürəm" şeirində Ustaclı təəssüf hissi ilə "Bizdə çatmır dədələrin hikkəsi"-deyərək səbəbi də göstərir Çünkı bizdə çatmayan Xətainin və Qacarın ölkəsidir.Şeirdə Vətənin bütövlüyü arzusu İfadƏ olunmuşdur."Inci, qərənfil" şeirində şair kədəri oxucuya da hopur;.Ustac tək oğullar çox mütəəssir, Üzündən utanır dözür ağrına.Əlacsız-əlacsız ödünc çiçəyi Silah əvəzinə sıxır bağrına".Son olaraq şairə yeni-yeni yaradıcılıq uğurları arzulayıram...

Mənbə:**Tofiq Qəbul**

= 19 =

MÜSAHİBİMİZ:

ŞAİR – PUBLİSİST

Təranə MƏMMƏD

Seir, söz o zaman gözəl olur, o zaman ürəklərə toxunur ki, onu yazan insanın ürəyi başqalarının ürəyindən seçilsin. O ürək o qədər həssas , o qədər ağrılı,o qədər sevgili olmalıdır ki, ondan süzülüb misralara düzülən sözlər oxucunu ovsunlasın. Bütün sadaladıqlarım Zaur bəyə məxsusdur. Zaur Ustacın şeirlərindən dağlarımızın çiçəklərinin qoxusu gəlir, analarımızın layla səsi eşidilir, şəhidlərimizin ölməzliyi və Vətənimizin əzəməti görünür Ürəklərimizi dağlayan Qarabağ həsrəti görünür. Bu insan özü öz ürəyində bir ocaq qalayıb sanki. Və bu ocağın istisinə sözlər,kəlmələr yığışır və maraqlı bir halay çəkib oxucuların ürəyinə hopur. Mən Zaur Ustacın ürəyindəki odun əbədi yanmasını arzu edirəm. Qoy bu yanan ocağın alovu hər bir oxucunun qəlbinə qığılcım ata bilsin!

Mənbə: **Terane Memmed**

= 20 =

MÜSAHİBİMİZ:

ŞAİR

İldırım ƏKBƏROĞLU – Beyləqan.

Əvvəllər şairlərin,yazıçıların əsərləri çap olunduqdan sonra respublikamızın ərazisində fəaliyyət göstərən kitab satış mərkəzlərinə göndərərdilər, kitabların satışı təşkil olunardı və hər kəs şair və yazıçıları tanıyardı, öz sevdiyi yazarının kitabını əldə edərdi.Lakin indi, şeriləri ürəkləri fəth edən,hər kəsin sevimlisinə dönən şairlərimizin kitabını əldə etmək, onun yaradıcılığı ilə yaxından tanış olmaq üçün,onların şer kitablarını tapmaq çox çətin olub.Elə gözəl şeriləri ilə ürəkləri fəth edən, vətənimiz Azərbaycanın hər bir guşəsini poetik düşüncələri, lirik duyğuları ilə oxucularına qarış-qarış tanıdan, sevgi şeriləri ilə qəlbləri, ürəkləri duyğulandıran Zaur Ustac belə şairlərdəndir və nə yaxşı ki,FB , Zaur Ustacı kimi istedadlı bir şairi kəşf etməkdə, onun gözəl şerlərindən yararlanmaqda mənə yardımçı olub.
Zaur Ustacın yazdıqları şerilərində onun istedadı, təbi ilə yanaşı, onun, həm də, gecəli-gündüzlu çəkdiyi zəhməti, onun şerilərindəki sözlərin, inci dənələri kimi, sözlərin içindən seçməsi oxucunun istər-istəməz nəzərini cəlb edir və Zaur Ustacı oxucusunun sevimlisinə çevirir.”
“Qələmlə elə yaz, qoy izi düşsün”misrası, onun “Söz” şerindəndir ki, bu da, dediyimə sübut ola bilər və həm də bu şeridə hər bir yazarı məsuliyyətə səsləyir Zaur Ustac.
“Yağı cövlan edir,dağıdır yenə,
Qoynunda büsatı, cəlalı, dağlar!”-deyən Zaur Ustac Gözəl Qarabağımızın yağı düşmən tərəfindən işğalını poetik duyğuları ilə oxucularına çatdırır, hər bir vətənini sevənini Gözəl Qarabağımızın

işğaldan azad edilməsi üçün canini belə verməyi hazır olduğunu bəyan edir.

Zaur Ustac poeziyası,müasir Azərbaycan poeziyasında sevilən və seçilən poeziyalardan biridir və o, hər şeri ilə Azərbaycanımızı, onun gözəlliyini, qüdrətini tərənnüm etməklə bərabər,həm də,onun dərdini, sevincini poetik duyğuları ilə oxucular çatdırır. Onun hər bir yeni şerində poetik tapıntıları ilə,yeniliyi ilə oxucunu özünə bağlayır və oxucularının sevimlisinə çevirir.

Zaur Ustaca yaradıcılığında uğurlar arzu edirik və onun yeni, gözəl şerilərini gözləyirik! Sənə gələcək yaradıcılığında uğurlar arzulayırıq, Zaur əzizim!

Mənbə**: Ildırım Akberoğlu**

= 21 =

MÜSAHİBİMİZ:

ŞAİR – PUBLİSİST

Etibar HƏSƏNZADƏ – Daşkəsən – Bakı.

Dəyərli sənət dostum Zaur bəyin şeirlərinə fikir söyləmək mənim üçün böyük məsuliyyətdir. Çünki, Zaur bəy həm sənətdə, həm də yaşda məndən böyükdür. Zaur bəyin təklifi ilə mən də, məmnuniyyətlə öz təəssüratlarımı bölüşürəm:

1. Qələmlə elə yaz, qoy izi düşsün.

Bu bir sətirdə ayların, illərin əziyyətli, yuxusuz gecələri, yaşanmış hisslərin ürəkdən gələn ifadəsi var. Ancaq belə yazılan şeirlər əsrlərə iz salar.

2. Hər otun, çiçəyin halın soraraq,
   Sinəmə yığdığım sözüm var mənim!!!

Bu misralarda bütün otların, çiçəklərin ruhunu duyan, nədən belə gözəl və xoş ətirli olduğunu bilən bir şairin duyğuları var. Ən gözəl və ən xoş ətirli çiçəklər Əli (ə)-ın vilayətini qəbul edənlərdir. Qızıl gülə peyğəmbər gülü də deyirlər, ləçəklərinin düzülüşündə peyğəmbərimizin və onun ailə üzvlərinin adı yazılıb. Məncə Zaur bəyin bu mənada sinəsinə yığdığı çox sözləri var.

3. Bu gün elə yaşa, elə iş gör ki,
   Peşiman olma, çalınanda "Sur"!

Bu misralarda əsil insan necə yaşamalıdır, bu günün əməlləri ilə öz axirətini necə qazanmaq lazımdır deyə bir mesaj var. Çünki, insan bü günki yanlış addımlarının haqq-hesabını, zamanı çatanda mütləq verəcəkdir. Bu mənada Zaur bəyin şeirlərində çox ibrətamiz nəsihətlər var.

4. Gülər gözdən qəm süzülər, bilinməz.

Misradan göründüyü kimi, Zaur bəy insan psixologiyasını gözəl bilir. Hər zaman həyatda ən çox dərdi olan insanlar, onu ətrafındakılardan gizlətmək üçün çox gülərlər. Çünki, qəmini, kədərini bəlli edərsən, dost kədərlənər, düşmən sevinər.

5. Küskündü, inçikdi Qarabağ Atı !!!
   Köçkündü, qəribdi Qarabağ Atı !!!

Bu ağrılı misralar Qarabağın sağalmaz, qara dərdlərinin ən gözəl ifadəsidir. Atsız qalan Qarabağ igidlərinin çarəsizliyinin, yurd, el-oba, Vətən dərdlərinin

ifadəsidir. Bu iki misra 26 ilin ağrı, acısının ifadəsidir. Bu mənada Zaur bəyin yaradıcılığı çox diqqət çəkicidir, az sözlə, çox şeyləri ifadə edir.

6. Zərrədə var olan gücdü Yaradan...
   Tək bu cümlədən cildlərlə kitab yazmaq olar....

Zaur bəyin yaradıcılığı - şeirləri çoxşaxəli və düşündürücüdür. Mən Zaur bəyə yaradıcılığında böyük uğurlar arzulayıram.

Etibar Həsənzadə.
18.04.2018.

Mənbə: **Yazar Etibar Həsənzadə**

= 22 =

MÜSAHİBİMİZ:

ŞAİRƏ

Xuraman CAMALQIZI – Laçın –Bakı.

Zaur Ustac vətəndaş qayəli şairdi - onun hər misrasında Vətənin nəbzi vurur. Şair Vətəni anası kimi haysız- küysüz , təmənnasız, pafossuz sevir. Zaur Ustacın yaradıcılıq sferası çoxşaxəli, rəngarəngdir. Lirika da çox oxunaqlı, şirin bir dillə yazılır. Mən şairin missiyasın bir neçə aspektden dəyərləndirdim. Səmimi, isdedadlı şair dostumuza uğurlar arzulayıram.

Hörmətlə: Xuraman Camalqızı

Mənbə: **Xuraman Camalqızı**

MÜSAHİBİMİZ:

ŞAİR – PUBLİSİST, YAZIÇI.

Vahid ÇƏMƏNLİ – Ağdam – Vladivostok, Russia.

Kövrək misralar ustası Zaur Ustac!

Bəzən söz ovuna çıxırsan, bəzən də söz sənin ovuna çıxır. Zaur Ustacda hər ikisi var. O həm gözəl söz deyə bilən, həm də gözəl sözə dəyər verən şairdi. Zaur Ustacın söz dünyası çox rəngbərəngdir. Çünki misralarına canı qədər sevdiyi Azərbaycanın hər bir guşəsinin min bir rəngi hopub:

"Gəzdim, bu torpağı, mən oymaq-oymaq,

Ən adi daşa da olmuşam qonaq,

Hər otun, çiçəyin halın soraraq,

Sinəmə yığdığım, sözüm var mənim..."

Zaur Ustac gələcəyə nikbin baxan şairdi. Bu nikbinlik el aşığı dədə Ələsgərə həsr elədiyi şerdə öz gözəl əksini tapıb:

"Dünya belə qalmaz, dəyişər zaman,

Yenə dövran olar, həmənki dövran,

Bulaqlar başında məclislər quran,

Oğullar ərsəyə gələli, dağlar!.."

Sözünə, qələminə qüvvət ey söz ovçusu!

Mənbə: Vahid Vahid

= 24 =

MÜSAHİBİMİZ:

ŞAİR – PUBLİSİST, PEDAQOQ.

Azad FƏRHADOĞLU – Dumanisi – Bakı.

Salam. Zaur Ustacın şeirlərinin gözəlliyi ondadır ki , şeirdə fikirlərini tam səmimiyyətlə bildirir, heç bir qəlizliyi olmadan. Şeirlərində Vətənə, torpağa bağlılıq yüksək dərəçədədir. Sevimli şairimizə yeni -yeni yaradıçılıq uğurları arzulayıram.

Hörmətlə: Azad Ferhadoglu.

Mənbə: Azad Ferhadoglu

= 25 =

MÜSAHİBİMİZ:

ŞAİR

Rafiq GÖYÇƏLİ – Bakı.

Salam. Valah düzü heç bilmirəm necə başlayım. Zaur müəllim haqqında bütün xoş sözlərin hamısını mübaliğəsiz olaraq bura yazmaq olar və heç biri də artıq olmaz... Zaur müəllim, qardaşım mən Sizin bütün şerlərinizi bəyənirəm, həmişə də müsbət fikirdə olmuşam və müsbət də rəylər də yazmışam. Bir gözəl şair kimi, bir gözəl insan kimi, bir mehriban dost kimi, ən başlıcası vətənimizin keşiyində duran bir vənpərvər şair kimi Sizə böyük hörmətim, sayqılarım var. Allah Sizi qorusun qardaşım.

Hörmətlə: Rafiq Göyçəli

Mənbə: **Rafiq Goyceli**

= 26 =

MÜSAHİBİMİZ:

MÜƏLLİM

Şirməmməd HƏSƏNOV – Lənkəran.

Salam. Bu layihədə mənə də yer ayırdığınız üçün təşəkkürlər. Zaur müəllim haqqında elə onun özünə xitabən arzu və istəklərimi bildirmək istəyirəm. Hörmətli və dəyərli şairimiz Zaur Ustac mən sizin yaradıcılıgınızla, yazdıgınız şerlərlə demək ola ki, sosial şəbəkələrdən tanışam. İlk dəfə sizin şeinizi oxuyanda mənim diqqətimi yazdıgınız hər misra haralara aparmadı ki,.... Elə həmən gündən bütün şerlərinizin vurgunuyam. Kaş bütün şairlərimiz sizin şerləri oxuyaydılar və öz yazdıqlarına qiymət verəydilər. Sizlərə can saglıgı və yaradıcılıgınızda ugurlar arzulayıram.

Hörmətlə: Şirməmməd Həsənov

Mənbə: **Sirmemmed Hesenov**

= 27 =

MÜSAHİBİMİZ:

ƏN SADİQ OXUCU

Sultan BORÇALI – İstanbul – Türkiyə.

“Qələmlə elə yaz, goy izi düşsün...”

Deyən Zaur Ustac, əziz şairim qələmin hər zaman iti, təbin rəvan olsun. Ürəyindən süźülub gələn dəyərli misralar Vətən goxusu, TURAN ruhu verir insana.Var ol həmişə. Ugurlar.

Hörmətlə: Sultan Borçalı.

Mənbə: **Sultan Borcalı**

= 28 =

MÜSAHİBİMİZ:

DAİMİ OXUCU, EL AĞSAQQALI.

Hacı ƏFRƏDDİN – Lənkaran.

Salam. Bu layihədə mənə də yer verdiyiniz üçün öz minnətdarlığımı bildirirəm. Allah xeyirlisindən etsin. Düzü Zaur Ustac sözü haqqında söz demək, fikir söyləmək elə də asan iş deyil. Əksinə çox məsuliyyətli və çətindir. Mən necə böyuk Nizaminin hikmətinə qiymət verim, necə Nəsiminin, Xəyyamın, Səmədin, Mikayilın haqqında fikir bildirim, Ustad Şəhriyarı şeerlərinə nə deyə bilərəm?! Bəli bu isimləri boşuna çəkmədim. Bütün bu dühaların hamısını Zaur Ustac sözündə, kəlamında tapmaq olar. İndiki, adını şair qoyub sərsəm-sərsəm ağlına gələni yazanlardan fərqli olaraq Zaur gənc olsa da özündən əvvəlki ustadlara kəc baxmır, əksinə onlardan bəhrələnir. Təkrar edirəm, onları yamsılamır, sadəcə bəhrələnir. Təkrarsız bədii nümunələr yaradır. Onun yazdıqları o qədər seçilir ki, indiki qarışıq dövürdə - bu qədər şeir oğrusu olduğu bir vaxtada – müəllifin təhlükəsizliyin tam təmin edir. Odur ki, Zaur Ustac inamlı və arxayın şəkildə yazdıqlarını bütün mümmkün vasitələrlə təmənasız olaraq oxucuları ilə paylaşır. Mən şəxsən daimi bir oxucu kimi onun nəsə yeni bir şeir paylaşmasını-yayımlamasını gözləyirəm. Zaur bir neçə bəndlik şeirdə dövrün bütün məsələlərini, problemlərini göstərməyi bacarır. Onun işlətdiyi hər bir sözün məlumat yüklülüyü maksimum səviyyədə olmasına baxmayaraq oxucunu yormur. Əksinə öz axıcılığı ilə ruh verir. Bütün bunlardan əlavə Zaur Ustac bəsirət gözü açıq olan bir şəxsdir. Allahın sevimli bəndəsidir. Mən onun hər yeni şeirini sətir- sətir oxuyuram. Çünki, hər sözdə, hər cümlədə Ürfan var, Əxlaq var, Sufi fəlsəfəsi var.. Onun şeirlərində Quran ayələrin təsviri var. “Nəhcül Bəlağə"- nın şərhi var. Sizi inandırım ki, onun Aprel şəhidlərimizə həsr etdiyi “Ey Vətən Oğlu”

şeirini oxuyandan sonra uzun müddət təsirindən çıxa bilmədim. Əslində şeirdə elə qeyri-adi heç bir məlumat yoxdur hamımızın bildikləridir. Ancaq Zaur göz önündə olan görmədiklərimizi bizə elə bir dillə göstərir, xatırladır ki, adama sadəcə heyrətlənmək və bacarana isə əhsən demək qalır... Mənə qismət oldu bu şeiri müəllifin öz ifasında dinlədim və bir daha valeh oldum. Şairin özünü şeirdəki hər bir xarakterin yerinə necə qoyduğunu. Onların acısını yaşadığını hiss etdim. (Kimə maraqlı olsa şeirə buradan qulaq asa bilərlər.- red.):
https://www.youtube.com/watch?v=6kRl4ofpGi8

Bütün bu sadaladıqlarımla bərabər, eyni zamanda Zaur zəmanə adamıdır. Gəncdir. Sevilir, sevir... Onun şeirləri nə qədər məna yüklü olsalar da, bir o qədər müasir, axıcı və yadda qalandır... Mənim qeyd edə bildiklərim bu qədər. Bundan artığını bacarmaram. Bir daha minnətdarlığımı bildirirəm. Sağ olun.

Hörmətlə: Hacı Əfrəddin.

Mənbə: **Afraddin Aliyev**

= 29 =

MÜSAHİBİMİZ:

İŞÇİ QURUP

Gülü və Tuncay.

Salam, mən Gülü. İlk əvvəl onu qeyd edim ki, bu yazıları oxuduqca, yerləşdirdikcə özümü çox xoşbəxt hiss edir və fərəhlənirdim. Həm də qürur hissi keçirdirdim. Ikinci bir tərəfdən hər söz, hər cümlə məsuliyyətimi artırırdı. Çünki, həmişə bir addım öndə olmağı qarşıma vəzifə kimi qoyublar. Mən bunun necə çətin olacağını indidən anlayıram. Və bir məsələyə aydınlıq gətirmək istəyirəm. Bu kitabda =17= - ci sayla keçən "Gülüzə" şeiri mənim adıma yazılıb. Tuncay məndən balaca olsa da onun adına şeir yazılmışdı, mənim adıma isə yox. Bəlkə də bu məndə qısqanclıq yaratdığındanmı, yoxsa nədənsə tez-tez soruşurdum ki, ata bəs mənim adıma nə vaxt şeir yazacaqsan? Cavab isə həmişə belə olardı: - "Darıxma, Gülü bacı, gələndə yazacam..." Və nəhayət o şeir mən anadan olandan düz on iki il sonra "gəldi"... Burada bir məqamı da qeyd etmək istəyirəm. Şeirdə bir misra var: - "Ustac əmanətin qoru, Gülüzə." - "əmanət" dedikdə anasının, yəni mənim ata nənəm Gülüzənin (Qaydalının) adına işarə edir. Özüm soruşmuşam ki, bu nə "əmanət"-dir belə? Cavab isə belə oldu: - "Öz anamın adını vermişəm sənə Gülü bacı, bundan böyük nə əmanə ola bilər..."

Mənbə: Guluza Mustafayeva

Salam, mən Tuncay. Mənim artıq vəzifəm var, atam mənə fotoqraf deyir və özü ilə bütün vacib tədbirlərə aparır ki, orada şəkil çəkim. Mənə deyir sən hamıdan daha yaxşı çəkirsən. Mənim şeirlə bağlı heç bir problemim olmayıb. Ağlım kəsəndən bilişəm ki, atam mənə 'Tuncaya" (bu kitabda =18= - ci sayla keçir.) adlı şeir yazıb. Ancaq, bir əmma var – soruşanda deyir ki, Tuncay bu şeirin adı sənədir, dadı Gündoğandan, Günbatana bütün Türk balalarına aiddir. Yəni bu şeirin adı mənimdir. Mən də öz ilk şeirimi yazdım. Mənim üçün burada yaradılan imkandan istifadə edib öz ilk şeirimi sizinlə paylaşmaq istəyirəm:

AZƏRBAYCAN

Müəllif: Tuncay MUSTAFAYEV

BİZ MÜSTƏQİL DÖVLƏTİK

BİZİM BAYRAĞIMIZ VAR

BABALARDAN ƏMANƏT

QALAN TORPAĞIMIZ VAR.

BORCLUYUQ QORUMAĞA,

QULUĞUNDA DURMAĞA,

ƏKMƏYƏ, SUVARMAĞA,

DƏDƏ TÖVSİYƏMİZ VAR.

TUNCAYAM, ELİM AĞDAM,

İNANA BİLMİR ADAM,

VƏTƏN EDİLİB EDAM,

DÖRD YANDA TİKƏMİZ VAR...

14.04.2018. (İLK ŞEİR) BAKI Ş.

Mənbə: **Tuncay Sensey**

= 30 =

MÜSAHİBİMİZ:

YAZAR, RƏSSAM, PEDAQOQ (BU KİTABIN REDAKTORU).

Şəhin Senayi Fərd – TƏBRİZ.

“Budağindan qopmuş;yaşil yarpağam;
Təbiət alibdi qoynuna məni.
Haraya gedirəm özüm də bilməm; .
Tanrim yönəldir yoluna məni…”
Zaur Ustac-Bakı

Zaur müəllimin mənali şerlərində ayıqlıq qanad çalır, o halda ki, yatanları duru yol – yolağa çağırır, duyğların hamı ilə pay-bölüş edərkən … Qələminin gücü və vücudunun sağlığı arzumdu…

Sayqılarla: Şəhin Senayi Fərd.

“OTUZ ŞEİR, OTUZ FİKİR” layihəsi.

Qeyd:

Kitabdakı tərcümə və çevirmələr də redaktora aiddir.

SON SÖZ

Son söz olara bu şeiri şeçdim. Onu qeyd edim ki, şairin “OTUZ İLDİR, ƏLDƏ QƏLƏM” kitabında da son söz funksiyasın bu şeir yerinə yetirib.

Otuz ildi əldə qələm,

Söz mülkünə iz salmışam...

Çox əskidən qalma odam,

İndi-indi köz salmışam...

* * *

Heç qorxmadım əziyyətdən,

Yazdım mövcud vəziyyətdən,

Bil, agah ol məziyyətdən,

Əyri geyib, düz qalmışam...

* * *

Nəsimiyəm, Bəhmənyaram,

Hər doğruya, düzə yaram,

Yetərincə olub param,

Artımayıb, az qalmışam...

* * *

Çoxları kükrədi, daşdı,

Aylar ötdü, il dolaşdı,

Fəsillər dəyişdi, Qışdı,

Dəyişməyib, Yaz qalmışam...

* * *

Ustacam, məndən deməkdi,

Qutsal bildiyim, əməkdi,

Bəşərə qalan, köməkdi,

Həp vacibdən söz salmışam...

22.11.2017. (15’) Bakı.

سئو

سه ن سئو؛سه نی سئوه نی؛سئچیبدی سئوگی سه نی

...سئومه یه نی سئوه ن له ر؛سئوگی سینده سوچلودور

سئودی ییني سؤیله یه ن؛سئچیبدیسئوگیسینی

...سئوگیسین سئزدیرمه یه ن؛سئوگیسینده سوچلودور

***

سئوگی ؛سئویب...سئویلمه ک؛سئوه نین سئوینجیدیر؛

سئوگی ؛سونسوز سه خاوه ت؛سئودانین سونوجودور؛

سئوگی ؛سونا سه رمایه؛صاباحین سولقوجودور؛

...سئوگیسین سئزدیرمه یه ن؛سئوگیسینده سوچلودور

***

سئودالینین سئوگیسی؛سیرلی؛سونسوز؛سینیرسیز؛

سئویب؛ سئزدیرمه مه ییسولطانلیق می سانیرسیز؟؟؟؟

سئومه یه نی سئومه ییصئداقه ت می ساییرسیز؟؟؟؟

....سئودی ییني سئودیره ن سئوگیسینده سوچلودور

زائــور اوستاج

Qeyd:

= 15 = - ci saylı “SEV” şeiri Əski əlifba ilə.



Rəssam: Şəhin Senayi Fərd.

رســـام : شهین ثنایی فرد

گؤزون گؤزو

گوله ن گؤزون گؤزه ل لی یی گؤزه ل دی

....گوله ن گؤزوگؤرونمه یه ن گؤز گؤره ر

گؤزون گولور؛گؤزون گؤزو گولمه ییر؛

...گؤزده گؤزو گؤرونمه یه ن گؤز گؤره ر

***

گؤزو گؤزده ن گؤزون گؤزو گیزله دیر؛

گؤزده گؤزو گؤزون گؤزو گیزله دیر؛

گؤزون گؤزو گؤزوموزده گیزلی دیر

...گیزلی گؤزو گؤرونمه یه ن گؤز گؤره ر

***

گؤی گؤز گیریان؛گؤزو گؤزده ن گولومسه ر

گوله ن گؤزون گؤزو گؤزده ن گولومسه ر؛

گولمه یه ن گؤز ؛گؤزه گؤزده ن گولومسه ر؛

....گیریان گؤزو گؤرونمه یه ن گؤز گؤره ر

زائــور اوستاج

Qeyd:

= 14 = -cü saylı “GÖZÜN GÖZÜ” şeiri Əski əlifba ilə.

ZAUR USTACDAN BİR BEÇƏ KƏLMƏ

Məhdudluğun məhsulu məchulluğa məhkumdur.

Ruhun təntənəsi, məhdudiyyət və qadağaların ötəsindədir.

Ruhun təntənəsi, istirab dolu tabuların kölgəsində qalar, olmazların olmadığı məkan və məqamda aşikardır.

Sevin ki, seviləsiz.

Əgər arxanızca danışmağa başlayıblarsa, demək, önə çıxmağı bacarmısız.

Tərbiyəsiz bir bədəndən tərbiyəli heç nə gözləmə.

Dərin müşahidə, qalın kitab kimidir.

Gözəl rəsm tələtümlü qəlbin, səliqəli xətt isə sakit ruhun məhsuludur.

Mütaliə orqanizmin kompleks müalicəsi və sağlam həyat deməkdir.

Tarixi yaşat ki, tarix də səni yaşatsın.

Başqasını aldatmaq müəyyən mənada zirəklik olsa da, özünü aldatmaq ən azı axmaqlıqdır.

Həyat gur işıqlı elə bir səhnədir ki, alqışlar yalnız və yalnız ən yaxşı ifaçılara çatar.

Ən mədəni və ləyaqətli şəxslər daha çox qadağalara boyun əyib, məhdudiyyələrlə razılaşanlardır.

Ləpə nə qədər böyük və vahiməli olsa da, ömrü sahilə qədər olar...

Mənzildə artıq çarpayı ailə möhkəmliyinə xələl gətirən başlca amildir...

“Mütailə” zamanı mütalibinizi düzgün seçin... Hörmətlə: Zaur Ustac.

ZAUR USTAC HAQQINDA

Zaur Ustac 8 yanvar, 1975-ci ildə Bakı şəhərində anadan olmuş, ilk təhsilini Ağdam rayonunun Yusifcanlı kənd orta məktəbində almış, ardıcıl olaraq Bakı Dövlət Universitetində, Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində, Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutunda və Şamaxı Humanitar Kollecində davam etdirmişdir. Birinci Qarabağ müharibəsinin iştirakçısı və halhazırda ehtiyatda olan zabitdir. Zaur Ustac 1988-ci ildən etibarən dövri mətbuatda çıxış edir. Zaur Ustac «Yazarlar» jurnalının təsisçisi və baş redaktorudur. Zaur Ustac «GÜNAYDIN“ («AĞÇİÇƏYİM”), “İSTƏMƏZDİM ŞAİR OLUM HƏLƏ MƏN”, “GÜLZAR”, “ŞEHÇİÇƏYİM”, “MƏHDUD HƏYDTIN MƏCHUL DÜŞÜNCƏLƏRİ”, “MUM KİMİ YUMŞALANDA”, “BAYATILAR”, “BALÇİÇƏYİM”, “BƏRZƏXDƏ”, “GÜLÜNÜN ŞEİRLƏRİ” “SEVİN Kİ, SEVİLƏSİZ…”, “QƏLBİMİN AÇIQCASI”, “USTADNAMƏ”, “NİŞANGAH”, “ÇƏHRAYI KİTAB” kimi şeirlər kitablarının, “USUBCAN ƏFSANƏSİ” adlı məqalələr toplusunun və Azərbaycan Respublikasının Milli Qəhrəmanı Gizir Mübariz İbrahimovun əziz xatirəsinə həsr olunmuş “ ORİYENTİR ULDUZU” kitabının müəllifidir.

Zaur Ustac was born on January 08, 1975, in Baku of Azerbaijan Republic. He studied at Baku State University and then continued his education at Higher Military School named after Heydar Aliyev , International Institute of Invention & Business and Shamakhi Humanitas College. He is Chef Editor in The Yazarlar Magazine.

Zaur Ustac, 1975-ci il ocak ayının 8`in de Bakü`de doğdu. Okul hayatına Ağdam`ın Yusifcanlı köy orta okulunda başlamış, ardından Bakü Dövlet Üniversitesinde, Bakü Ali Birleşmiş Kumandanlık okulunda, “Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu”da ve “Şamahı Humanitar Kolleci”nde tahsil hayatını devam ettirmişdir. Zaur Ustac, “Yazarlar” dergisinin kurucusu ve baş editörüdür.

زائوراوستاج 8 يانوار1975-جى ايلده؛باكى شه هه رينده؛آنادان اولموش.ايلک تحصيلى نى؛آغدام رايونونون يوسيفجانلى كه ن د؛اورتا مه ک ته بينده آلميش؛آرديجيل اولاراق باكى دوله ت اونيوئرسيتئدينده عالى تحصيلاتين بئين الخالق ايختيراچيليق وبيزنئس اينستيتوتوندا و شاماخى هومانيتار كوللئجينده داوام ائتديرميشدير.زائوراوستاج1988-جى ايلده ن؛اعتيباره ن دؤورى مطبوعاتدا؛چيخيش ائدير. او«يازارلار»ژورنالينين تأسيس چى سى وباش ريداكتورودور.
زائوراوستاج*گونآيدين,آغ چيچه ييم,ايسته مه زديم شاعيراولوم حه له من, گولزار,شئح چيچه ييم,محدود حه ى دتين مجهول دوشونجه له رى, برزخ ده, موم كيمى يومشالاردا,باياتيلار,بال چيچه ييم,گولونون شعرله رى, سئوينكى سئويله سيز..,قه ل بيمين آچيقجاسى,اوستادنامه,نيشانگاه, چه ه رايى كيتاب,اوتوزايلديرالده قه له م,كيمى شعرله ر اوسوبجان افسانه سى آدلى مقاله له ر توپلوسونون و آذربايجان رئسپوبليكاسينين ميللى قهرمانى گيزير موباريز,,ايبراهيموون عزيزخاطيره سينه حسر اولونموش,,اورى يئنتير اولدوزو,,كيتابينين موعه ل ليفيدير. اوستاجا گؤره يازارلار؛آنجاق يازارلار... يعنى شوبهه سيز كى؛حيكمه ت و سؤز؛اوجا تانرييا مخصوصدور بيز ساده جه؛ديكته اولونانلارى قه له مه آلان؛قه له م توتان قوللاريق. قه له مين صاحيبيده اودور

اوستاجلييام اليم عرشى اعلادا... بو نه سيته م ميلله تيم نه بلادا؟ !

زائوراوستاج هشتم ژانویه 1975میلادی درشهرباکومتولدشد.تحصیلات ابتدائی ومتوسطه رادرروستای یوسفجانلی ازتوابع شهرستان آغدام؛به اتمام رسانیده وبه دنبال آن تحصیلات عالی اش را؛دردانشگاه دولتی و انستیتوبین المللی اختراعات وکسب وکاروکالج بشردوستانهء شهرشاماخی ادامه داده وازسال1988میلادی نیز؛اجرای سخنرانی دوره ای مطبوعات رابرعهده داشته است.وی مؤسس وسردبیرمجلهء «یازارلار»نیزمی باشد. زائوراوستاج صاحب آثاری چون*گونآیدین,آغ چیچه ییم,ایسته مه زدیم شاعیراولوم حه له مه ن,گولزار,شئح چیچه ییم,محدود حه ی دتین مجهول دوشونجه له ری,برزخ ده,موم کیمی یومشالاردا,بایاتیلار,بال چیچه ییم, گولونون شعرله ری,سئوین کی سئویله سیز...,قه ل بیمین آچیقجاسی, اوستادنامه,نیشانگاه,چه ه رایی کیتاب,اوتوزایلدیر الده قه له م, ونیز گرد آورندهء مقالات اوسوبجان افسانه سی ومؤلف کتاب اوری یئنتیر اولدوزو (ستارهء استقامت)به یاد؛داشت ابراهیم اف,قهرمان ملی ومبارز شجاع جمهوری آذربایجان نیز می باشد. به هرحال نویسندگان راجع به اوستاج می نویسند؛یعنی بی شک وشبهه؛ سخن وحکمت؛مخصوص خداوند بلندمرتبه است.مافقط بندگان قلم بدستی هستیم که دیکته شده ها را می نویسیم صاحب قلم نیز اوست. زائور اوستاج:اهل اوستاجم دستم رو بسوی عرش اعلاست؛؛این چه ستم وچه بلایی ست که ملتم گرفتارش شده است؟؟؟



ZAUR USTAC HAQQINDA MÜƏLLİFİN DİGƏR KİTABI

Redaktor və tərcüməçi: Şəhin Senayi Fərd.

: شهین ثنایی فرد رئداکتور و ته رجومه چی

Hacıxanım AİDA

“ÖMRÜN ANLARI” *(Zaur Ustac haqqında fotolar danışır)EK*

Bakı, “USTAC.AZ” nəşrləri, 2018, 106 səh.

Kod: EK-020-04- MZM-14 -20-18

Elektron Kitab Zaur Ustac yaradıcılığının 30 illik yubiley tədbirləri çərçivəsində nəşr olunur. Bu kitabda - (Y-30-EK-20-ZU) – Şairin icazəsi ilə tərtibçilər tərəfindən ümumi istifadədə olan, əsasən müxtəlif internet mənbələrindən toplanaraq seçilmiş fotolarından istifadə olunmuşdur. Bundan əlavə iki qrafikada, dörd dildə yazar haqqında qısa məlumat verilmişdir. Buyurun, ardını Sizə fotolar danışacaq. Kitab PDF formatda: HXA-OMURAN

http://www.kitabxana.net/?oper=readBook&id=4121



ZAUR USTAC "OTUZ İLDİR ƏLDƏ QƏLƏM" Bakı – 2018. YENİ KİTABLAR SƏRGİSİNDƏ MİLLİ KİTABXANA. MAY, 2018, BAKI.

Mənbə: **Azərbaycan Milli Kitabxanası**

http://ek.anl.az/lib/item?id=chamo:587684&theme=e-kataloq

http://ek.anl.az/search/query?term_1=zaur+ustac&theme=e-kataloq

http://anl.az/el/Kitab/2018/06/cd/2018-445.pdf

http://kitabxana.net/?oper=readBook&id=4078

MÜƏLLİFİN “MƏQAM” KİTABI MÜXTƏLİF MƏNBƏLƏRDƏ:

“MƏQAM” Toplu. Bakı – 2017. *PDF: – ƏNƏNƏVİ NƏŞR:HXA – M*

http://www.kitabxana.net/?oper=readBook&id=2736

http://ek.anl.az/search/query?term_1=hac%C4%B1xan%C4%B1m+aida&theme=e-kataloq

https://zaurustacinkitablari.files.wordpress.com/2018/04/hxa-m.pdf

ƏLAVƏLƏR: (*Sənədlər*)

БҮТҮН ӨЛКӘЛӘРИН ПРОЛЕТАРЛАРЫ, БИРЛӘШИН!

ЛЕНИН ЈОЛУ

АЗӘРБАЈЧАН КП АҒДАМ РАЈОН КОМИТӘСИНИН ВӘ РАЈОН ХАЛГ ДЕПУТАТЛАРЫ СОВЕТИНИН ОРГАНЫ

ОРГАН АГДАМСКОГО РАЙОННОГО КОМИТЕТА КП АЗЕРБАЙДЖАНА И РАЙОННОГО СОВЕТА НАРОДНЫХ ДЕПУТАТОВ

ГӘЗЕТ 1930-чу ИЛДӘН ЧЫХЫР.
№ 62 (7194)
ЧӘРШӘНБӘ АХШАМЫ.
24 МАЈ
1988-чи ИЛ.
Гијмәти 3 тәнк.

XIX Үмумиттифаг партија конфрансыны ләјагәтлә гаршылајаг!

Азәрбајчан КП МК-нын пленуму һаггында МӘ'ЛУМАТ

Мајын 21-дә Азәрбајчан КП МК-нын пленуму олмушдур.

Плендә тәшкилат мәсәләсинә бахмышдыр.

Плендә К. М. Бағыровун сәһәтиндә көрә пенсија чыхмасы илә әлагәдар олараг Азәрбајчан КП МК-нын биринчи катиби вәзифәсиндән вә МК бүросунун үзвлүјүндән азад едилмишдир.

Ә. Х. Вәзиров Азәрбајчан КП МК-нын биринчи катиби вә МК бүросунун үзвү сечилмишдир.

Пленумун ишиндә Сов.ИКП МК Сијаси Бүросунун үзвү, Сов.ИКП МК катиби Ј. К. Лигачов вә Сов.ИКП МК Сијаси Бүросу үзвлүјүнә намизәд, Сов.ИКП МК катиби К. П. Разумовски иштирак етмишләр.

Ј. К. Лигачов пленумун иштиракчыларыны гаршысында чыхыш етмишдир.

Азәрбајчан КП Мәркәзи Комитәсиндә

Азәрбајчан КП Мәркәзи Комитәси «Дағлыг Гарабағ-Мухтар Вилајәтиндә ишләмәк үчүн Б. С. Кевәрков јолдашын вә башга рәһбәр ишчиләрин вәзифәјә тә'јин едилмәси һаггында» мәсәлә мүзакирә етмишдир.

Гәрара алынмышдыр ки, бу јолдашлара көмәк Сов.ИКП Мәркәзи Комитәси тәрәфиндән көстәрилсин.

Бакыда көрүш вә сөһбәтләр

Сов.ИКП МК Сијаси Бүросунун үзвү, Сов.ИКП МК катиби Ј. К. Лигачов вә Сов.ИКП МК Сијаси Бүросу үзвлүјүнә намизәд, Сов.ИКП МК катиби К. П. Разумовски Азәрбајчан КП вәкилләри, шәһәр вә рајон комитәләринин биринчи катибләри илә көрүшмүшдүр.

ССРИ-нин 50 илләји әдәбијјат, Бакы сәнајечиләри, заводларда, фабрикаларда вә мүәссисә-техники шөбәләрдә көрүш вә сөһбәтләр олмушдур. Сөһбәт јеникорлашмаја, јенидәнгурмаја, јени тәфәккүрлә шәраитдә көрүлән ишләрдән, истеһсалын техники сәвијјәсини вә кејфијјәтини јүксәлтмә проблемләриндән, сосиал сөһбәтләр апарылмышдыр. Сов.ИКП МК катибләри өзләри кечмишдир.

Мәшһур 21-дә Ј. К. Лигачов вә К. П. Разумовски Москваја јола дүшмүшләр.

(Азәрйеформ).

24 May 1988 – ci il Zaur Ustacın “Əməyə məhəbbət” adlı məqaləsi dərc olunan “Lenin yolu” (sonralar “Ağdam”) qəzetinin 62-ci (7194) sayı.

24 МАЈ 1988-чи ИЛ. **Ленин јолу** 4

Бизә јазырлар

„Актјор олачагам"

Һаггында сөһбәт етмәк истәдијим Тејмур Әмраһов һәлә орта мәктәбдә охујур. Лакин онда актјор олмаг һәвәси ушаг јашларындан баш галдырыб. Бу һәвәс, бу истәк ону мәшһур сәһнә актјорлары илә таныш-лыга сөвг едиб. Тејмур илк дәфә 12 јашында олаггән Кировабад шәһәр Әләмләр евин халг театрында тамашаја гојулмуш бир нечә сәһнә әсәриндә епизодик ролларда чыхыш едиб. Көркәмли драматург Ҹ. Ҹаббарлынын «Ајдын» пјесиндәки кичик бир роллуна көрә II Үмумиттифаг фестивалы лауреаты адына лајиг көрүлүб. О, даһа бир нечә сәһнә әсәриндә—И. Әфәндијевин «Үчатылан», А. Мәммәдовун «Кәлләләр», Ә. Һачызадәнин «Итгин гәлин» тамашаларында күтләви вә епизодик ролларда мәһарәтлә чыхыш едиб.

Артыг бир нечә илдир ки, Тејмур рајон пионер вә мәктәблиләр евинин «Гарабағ бүлбүлләри» ансамблынын үзвүдүр. Рајонун тәдбирләриндә мүнтәзәм чыхыш едир. Онун кестәрдији «Автобусда», «Мүәллим вә тәләбә» адлы јумористик сәһнәчикләр тамашачыларын алгышларына сәбәб олур.

Тејмурун 16 јашы вар. О, өз һәјат јолуну гәти мүәјјән едиб—актјор олачагам. Она бу јолда уғурлар арзулајырыг.

Хатирә МӘММӘДОВА,
рајон пионер вә мәктәблиләр евинин күтләви ишләр мүдири.

Әмәјә мәһәббәт

Синфимизин шакирдләри әмәјә бөјүк һәвәс көстәрирләр. Биз әмәк тә'лими дәрсләриндә мәктәбимизин е'малатханасында вә һәјәтјаны саһәсиндә бөјүк һәвәслә ишләјирик. Бундан башга һәр һәфтәнин биринчи күнү дәрсдән сонра мәктәбимизин «Әдәсинә» верилмиш үзүмчүлүк саһәсиндә тәсәррүфат ишләри көрүрүк. Шакирдләрдән Ҹаһид Шүкүров, Күлбәниз Нәсибова, Заур Мәммәдов, Әсмәр Аббасова, Бәшир Мәммәдов, Күлјанаг Меҗдунова вә башгалары бу ишдә фәргләнирләр.

Заур МУСТАФАЈЕВ,
Јусифҹанлы кәнд орта мәктәбинин шакирди.

Галиб мәлмишләр

Мәктәбимизин шакирдләри идмана бөјүк мараг көстәрирләр. Футбол вә волејбол командаларымыз рајон јарышларында мүвәффәгијјәтлә чыхыш едирләр. Нөвбәти биринчилијә һазырлашан идманчыларымыз Мардакерт рајонунун Күзәјпәјә мәктәбинин идманчылары илә јолдашлыг көрүшү кечирмишләр.

Футболчуларымыз 5:0 һесабы илә галиб кәлмишләр. Топлардан дөрдүнү Халиг Сәфәров вурмушдур. Јери кәлмишкән гејд едим ки, IX синифдә охујан бу футболчу рајонун «Гарабағ» командасынын мәшгчиләринин диггәтини ҹәлб едиб.

Командамыз бундан сонра да ојун тактикасыны тәкмилләшдирмәјә чалышачаг, гаршыдакы јарышлара даһа чидди һазырлашачагдыр.

Рәһман ӘҺМӘДОВ,
Паправанд кәнд орта мәктәбинин шакирди.

Шәкилдә: һ. һачыјев адына совхозун әразисиндә тикилиб истифадәјә верилмиш базар.

Е'ЛАНЛАР

АЗӘРБАЈҸАН ДӨВЛӘТ АГРОСӘНАЈЕ КОМИТӘСИ
М. ГАСЫМОВ АДЫНА
ТОВУЗ СОВХОЗ-ТЕХНИКУМУ
1988—1989-ҹу дәрс или үчүн әјани вә гијаби шө'бәләрә

ТӘЛӘБӘ ГӘБУЛУ Е'ЛАН ЕДИР:

ӘЈАНИ ШӨ'БӘ

Онилик тәһсил әсасында:

Кәнд тәсәррүфаты истеһсалынын планлашдырылмасы.

Јејинти сәнајеси мүәссисәләринин машын вә аваданлыглары.

Үзүмчүлүк үзрә ихтисаслашдырылмыш мејвә-тәрәвәзчилик.

Кәнд тәсәррүфаты истеһсалынын планлашдырылмасы шө'бәсиндә тәһсил мүддәти 1 ил 10 ај, галан шө'бәләрдә 2 ил 6 ајдыр.

ГИЈАБИ ШӨ'БӘ

Онилик тәһсил әсасында:

Кәнд тәсәррүфаты истеһсалынын планлашдырылмасы.

Јејинти сәнајеси мүәссисәләринин машын вә аваданлыглары.

Үзүмчүлүк үзрә ихтисаслашдырылмыш мејвә-тәрәвәзчилик.

Кәнд тәсәррүфаты истеһсалынын планлашдырылмасы шө'бәсиндә тәһсил мүддәти 1 ил 10 ај, галан шө'бәләрдә 2 ил 7 ајдыр.

Совхоз-техникумун әјани шө'бәсинә 30 јашынадәк, гијаби шө'бәјә исә јашындан асылы олмајараг бүтүн совет вәтәндашлары гәбул едилирләр.

Орта тәһсил әсасында совхоз-техникума дахил олмаг истәјәнләр үзүмчүлүк үзрә ихтисаслашдырылмыш мејвә-тәрәвәзчилик ихтисасы үзрә имтаһан (шифаһи). Азәрбајҹан рәһбәр вәтәндашлар техникума мүсабигәдәнкәнар гәбул едилирләр.

Техникума дахил олмаг истәјәнләр ашағыдакы сәнәдләри тәгдим етмәлидирләр:

—директорун адына ариза
—агросәнаје бирлијинин вә ја совхозун көндәриши
—тәһсил һаггында сәнәд (әсли)
—сағламлыг һаггында 086-У нөмрәли формада тибби арајыш
—3Х4 см. өлчүдә 4 әдәд фотошәкил
—әмәк китабчасынын мүдиријјәт тәрәфиндән тәсдиг олунмуш сурәти (иш стажы оланлар үчүн).

Әјани шө'бәјә аризәләр ијунун 1-дән августун 14-дәк гәбул едилир. Гәбул имтаһанлары августун 1-дән 21-дәк кечирилир.

Гәбул олунанлар тәләбәләр сырасына августун 22-дән 25-дәк дахил едилирләр.

Гијаби шө'бә үзрә јејинти сәнајеси мүәссисәләри машын вә аваданлыглары, кәнд тәсәррүфаты истеһсалынын планлашдырылмасы шө'бәләринә аризәләр августун 10-дәк гәбул едилир.

Гәбул имтаһанлары ијун, ијул, август ајынын 10-дан 20-дәк үч мәрһәләдә кечири-

24 May 1988 – ci il Zaur Ustacın “Əməyə məhəbbət” adlı məqaləsi dərc olunmuş “Lenin yolu” (sonralar “Ağdam”) qəzetinin 62-ci (7194) sayında, 4-cü səhifəsi.

Министерство
связи Союза ССР

Т А Л О Н

к почтовому переводу

на 01 руб. 44 коп.

От кого Гидаятову

Адрес Ядам

(почтовый индекс и подробный адрес

Обязательное жирной чертой

Для письменного сообщения

Коноров

Воркоп, тип., з. 122— 1986 г.

Ağdam rayon, Yusifcanlı kənd Poçtundan verilib.
1988 - ci il.

Ф. 3

Министерство связи СССР

КВИТАНЦИЯ № 3

в приеме заказн. письма ~~бандероли~~ (особое назначение)

Куда Агдаш.

Кому Агдаш 2 ой

Принял (подпись)

В соответствии с Уставом связи СССР почта отвечает за принятые отправления в течение 6 месяцев со дня их подачи

Ağdam rayon, Yusifcanlı kənd Poçtundan verilib.
1988 - ci il.

MÜNDƏRİCAT

ÖN SÖZ.....3

BİRİNCİ HİSSƏ – ŞEİRLƏR.....10

İKİNCİ HİSSƏ – FİKİRLƏR.....51

SON SÖZ.....88

REDAKTOR ƏLAVƏSİ.....90

ZAUR USTACDAN BİR NEÇƏ KƏLMƏ.....93

ZAUR USTAC HAQQINDA.....94

MÜƏLLİFİN “MƏQAM” KİTABI HAQQINDA.....99

ƏLAVƏLƏR – SƏNƏDLƏR.....100

MÜNDƏRİCAT.....104

Hacıxanım AİDA

(Qasımova Ayidə Müseyib qızı)

“OTUZ ŞEİR, OTUZ FİKİR...”

Elektron nəşr:

Redaktor və rəssam: Şəhin Senayi Fərd.

رئداکتــور و رســام : شهین ثنایی فرد

Texniki redaktor: Tunc AY

Rəssam və tərtibatçı: Gülü

Kitab “Yazarlar”-ın kompüter mərkəzində yığılıb.

Təşkilati dəstək: www.ustac.az *(Qeyri- kommersiya)*

Elektron Kitab Zaur Ustac yaradıcılığının 30 illik yubiley tədbirləri çərçivəsində nəşr olunan 4-cü kitabdır.

(Y-30-EK-04-ZU)

Bütün hüquqlar qanularla qorunur.

Çapa imzalandı: 14. 06.2018.

Pulsuz.

Qeyd:

Üzqabığının müəllifi: Gülü.(Mustafayeva Gülüzə Zaur qızı.)